YENİ AZƏRBAYCAN
25 oktyabr 2025-ci il, şənbə
№ 194 (7021)
Qiyməti 60 qəpik
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.



Milli azadlıqdan şirin nemət yoxdur!

# Laçına gedən yolda...

## 5 il əvvəl Qubadlı şəhəri və ətraf kəndlər düşmən tapdağından azad edilib

Bax səh. 2

İlham Əliyev @azpresident

Bu gün Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

11:02 PM · Oct 25, 2020 · Twitter Web App

İlham Əliyev @azpresident

Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər,

Translate Tweet

1:27 PM · Oct 26, 2020 · Twitter Web App

İlham Əliyev @azpresident

Replying to @azpresident

Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərini və Qubadlı şəhərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

1:27 PM · Oct 26, 2020 · Twitter Web App



# Bakı-Vaşinqton əlaqələrində yeni harmoniya...



Bax səh. 4

# Müasir dövlət quruculuğunun hüquqi əsasları

Bax səh. 2

## Bir dil, bir ruh, bir gələcək!

1926-cı ilin fevralında Bakıda keçirilən Birinci Türkoloji Qurultayda irəli sürülən bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar davamlı xarakter daşımaqdadır. Bir sözlə, türk dünyasının vahid ailə şəklində formalaşması istiqamətində mühüm nailiyyətlər qazanılır. 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür.

Bir neçə gün öncə isə - 22 oktyabr 2025-ci il tarixində Prezident İlham Əliyev Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi barədə Sərəncam imzalayıb. Ölkə başçısı Qəbələdə keçirilən Sammitdəki çıxışında bildirmişdi ki, ortaq tarix və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir: "Burada 1926-cı ildə Bakıda təşkil edilmiş birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulamaq istərdim. Gələn il birinci Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif edirəm. Əminəm ki, Zirvə Görüşümüz qəbul edəcəyimiz qərarlarla Türk Dövlətləri Təşkilatının mövqeyini daha da gücləndirəcək, xalqlarımızın rifahına və təhlükəsizliyinə əlavə töhfə verəcək".

Filologiya elmləri doktoru, professor Nizami Cəfərov Birinci Türkoloji Qurultaydan sonra türk dünyasının keçdiyi 100 illik tarixi yol, məlum Sərəncamın türk dövlətləri arasında həmrəyliyin gücləndirilməsi istiqamətində əhəmiyyəti barədə "Yeni Azərbaycan"a açıqlama verib.

Professor qeyd edib ki, ölkə başçısının Birinci Türkoloji Qurultayın 100 illiyini türk dünyası miqyasında, ümumiyyətlə, dünya...

Bax səh. 5



Bax səh. 3

# Sülh prosesinə ictimai dəstək

# Azərbaycan və Serbiya strateji tərəfdaşlığı möhkəmləndirmək niyyətindədir

Bax səh. 4

# Süni intellektə əsaslanan sosial xidmətlər

Bax səh. 6

# TDT nazirlərinin 2-ci iclasının Bəyannaməsi qəbul edilib

Bax səh. 6

## Cənubi Qafqaz regionunun yeni nəqliyyat xəritəsi müəyyənləşir

Oktyabrın 21-də Astanada Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə keçirilən Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şurasının ikinci iclasında Mərkəzi Asiya-Xəzər iqtisadi bağlantılarının əhəmiyyətinə, eləcə də Türk dövlətləri arasında dərinləşən ticari-investisiya bağlantılarına dair mühüm fikirlər səsləndirilib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan və Qazaxıstan regional təşkilatlarda sıx əməkdaşlıq edərək enerji-nəqliyyat və logistika sahələrində birgə səyləri intensivləşdirərək yeni nailiyyətlər əld etməkdədir. Nəqliyyat əməkdaşlığının ən mühüm bloku olan Orta Dəhliz üzrə atılan birgə addımlar tranzit daşımalarının artmasına müsbət töhfə verir. Yeri gəlmişkən, səfər çərçivəsində Prezidentlər - İlham Əliyev və Kasım-Jomart Tokayevin iştirakı ilə "Orta Dəhlizin inkişafı" birgə layihəsinin təqdimatı bir daha iki qardaş dövlətin qlobal nəqliyyat alyansında qətiyyətini və yorulmaz iradəsini əks etdirir. Çin və Orta Asiya ölkələrini Avropa dövlətləri ilə birləşdirməkdə əsas nəqliyyat-logistika marşrutu olan Orta Dəhliz regional və qitələrarası ticarətin möhkəmlənməsində strateji rol oynayır. Çindən Azərbaycana daşımaların həcmi getdikcə çoxalır və 2030-cu ilədək bunun hazırkı dövrlə müqayisədə 3 dəfə artması proqnozlaşdırılır. Bu isə öz növbəsində layihənin əhəmiyyətini daha da artırır. Bu baxımdan Azərbaycan və Qazaxıstan Orta Dəhlizin səmərəsini və rəqabətqabiliyyətliliyini artırmaq istiqamətində yeni təşəbbüslər üzərində çalışır.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin vurğuladığı kimi bölgənin ən iri infrastruktur layihələrindən biri olan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzrə yükdaşımaların...

Bax səh. 5

# Avropada ikili müdafiə tədbirləri



Bax səh. 7



# ABŞ-dan Ottavaya ittiham...

Bax səh. 7

# V.Putin İlham Əliyevə zəng edib

## İkitərəfli gündəliyin bir sıra aktual məsələləri müzakirə edilib

Oktyabrın 24-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Azərbaycan və Rusiya prezidentləri Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində oktyabrın 9-da keçirdikləri görüşün davamı olaraq ikitərəfli gündəliyin bir sıra aktual məsələlərini müzakirə ediblər.

Dövlət başçıları iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsinə, həmçinin enerji və nəqliyyat-logistika sahələrində birgə layihələrin həyata keçirilməsinə qarşılıqlı maraqlarını təsdiqləyiblər.

Telefon söhbəti zamanı regional əməkdaşlığın bəzi aspektlərinə və beynəlxalq vəziyyətə toxunulub.

Müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi barədə razılıq əldə olunub.



# Laçına gedən yolda...



## 5 il əvvəl Qubadlı şəhəri və ətraf kəndlər düşmən tapdağından azad edilib



*Nardar BAYRAMLI*

Bu gün - 25 oktyabr Qubadlı Şəhəri Günüdür. Hər günü zəfərlə dolu Vətən müharibəsinin 29-cu günü - 2020-ci il oktyabrın 25-i Qubadlı şəhərinin və ətraf kəndlərin düşmən tapdağından xilas edilməsi ilə əlamətdar olub. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmin gün özünün tviter hesabında bununla bağlı paylaşım edib: "Bu gün Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!".

Qeyd edək ki, Cəbrayıl və Zəngilan rayonlarının düşmən işğalından təmizlənməsi Şərqi Zəngəzurun qərb sərhədində dağlıq ərazidəki Qubadlıya gedən yolun açılmasında əhəmiyyətli rol oynayıb. Qubadlının şərqindəki Cəbrayılda düşmən hərbi birləşmələrinə sarsıdıcı zərbə vurulması və cənubdakı Zəngilanda aparılan uğurlu əməliyyatlar Azərbaycan Silahlı Qüvvələri bölmələrinin Qubadlı rayonunun inzibati hüdudlarına çıxmasına şərait yaradıb. Peşəkarlıqla və dəqiq döyüş taktikaları ilə aparılan hərbi əməliyyatlar nəticəsində Qubadlı şəhəri və rayonun kəndləri işğaldan azad edilib.

Ordumuzun bölmələri Yazı düzünə Cəbrayıl rayonu istiqamətindən yarğanlar vasitəsilə irəliləyib və düşmənin 21 səngərinə və Qubadlı şəhərinə nəzarəti ələ keçirib. Digər bölmələrimiz isə Zəngilan istiqamətindən irəliləyərək Qubadlı rayonu və ətraf kəndləri işğaldan azad ediblər. Həmin hərbi əməliyyatlar nəticəsində oktyabrın 23-də əvvəlcə Alaqurşaq, Kürd Mahruzlu, Muğanlı və Zilanlı kəndləri Ordumuzun nəzarətinə keçib. Bundan iki gün sonra isə Qubadlı şəhəri, Çaytumas, Əfəndilər, Mollabürhan, Padar, Sarıyataq, Yusifbəyli və Xanlıq kəndləri işğalçılardan təmizlənib.

Bölgədə ən gərgin döyüşlərin getdiyi yerlərdən biri Yazı düzü yüksəkliyi olub. Strateji əhəmiyyətə malik həmin yüksəkliyin erməni quldur birləşmələrindən azad edilməsi uğrunda gedən döyüşlər zamanı Azərbaycanın Milli Qəhrəmanı, polkovnik Şükür Həmidov şəhidlik zirvəsinə ucalıb.

Qubadlı əməliyyatı, həmçinin ovaxtkı Laçın dəhlizinə və Gorus-Qafan yoluna nəzarəti ələ almağa imkan verib. Bölmələrimiz, eləcə də Qubadlı-Laçın yolunu nəzarətə götürüb, yüksəkliyi tutub və düşmənin xeyli qüvvəsi zərərsizləşdirilib. Eyni zamanda, Zəngilan istiqamətində hücum nəticəsində düşmən tam mühasirəyə alınıb. İtki verən düşmən qüvvələri silah-sursat və texnikalarını ataraq qaçmağa başlayıb. Bu uğurlu əməliyyat nəticəsində həm yüksəkliklər, həm Qubadlı şəhəri, həm də ətraf kəndlər Ordumuzun nəzarətinə keçib, eyni zamanda, Qubadlı-Laçın yolunu da bağlamağa nail olunub. Beləliklə, Qubadlının azad olunması ilə Azərbaycan Ordusunun Laçın rayonuna yolu açılıb, Silahlı Qüvvələrimiz ovaxtkı Laçın dəhlizi istiqamətində irəliləməyə başlayıb. Prezident, Ali Baş Komandan İlham Əliyev Qubadlıda Azərbaycan Bayrağını ucaldan və şəhərin azad olunmasının hərbi əhəmiyyətindən danışarkən deyib: "Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu".

Xatırladaq ki, Birinci Qarabağ müharibəsində Qubadlı rayonu 238 şəhid verib, 190 nəfər əlil olub, 78 nəfər itkin düşüb. Torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə göstərdiyi rəşadətə görə Qubadlıdan 10 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Rayonun 300-ə yaxın sakini könüllü olaraq Vətən müharibəsində iştirak edib. Onlardan 11-i şəhid olub, 40 nəfərdən çoxu döyüşlərdən qazi kimi qayıdıb. Rayonun Yusifbəyli kəndindən olan əsgər Vüsal Yaqubov 19 yaşında Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Ölkə Prezidentinin 2023-cü il iyulun 31-də imzaladığı müvafiq Sərəncama əsasən şəhərin işğaldan azad edildiyi 25 oktyabr tarixi Qubadlı Şəhəri Günü kimi qeyd olunur. İndi Qubadlıda həyat yenidən canlanır. Düşməndən təmizlənən ərazidə bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Şərqi Zəngəzurun qərb hüdudu olan Qubadlıda tikinti işləri plan üzrə aparılır. Prezident İlham Əliyev Qubadlı azad olunduqdan sonra rayona bir neçə dəfə səfər edib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2021-ci il oktyabrın 25-də Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb və Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhərinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində, "AzərEnerji" ASC-nin sistem əhəmiyyətli 1110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışında iştirak ediblər.

2022-ci il oktyabrın 19-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar. Həmin gün onlar "Bərgüşadçay" və "Zabuxçay" su anbarının layihələri ilə tanış olublar, "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Qubadlı Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin təməli qoyulub. 2023-cü il mayın 4-də Prezident İlham Əliyev Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəb binasının, rayonun Xınalıq, Mahruzlu, Zilanlı kəndlərinin təməlini qoyub. Birinci mərhələdə Xınalıq kəndində 356, Mahruzlu kəndində 145, Zilanlı kəndində 159 fərdi evin tikintisi nəzərdə tutulur.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, Qubadlı rayonunu kənd təsərrüfatı və turizm sahəsi üzrə yeni iqtisadi mərkəz kimi inkişaf etdirmək nəzərdə tutulur. Görülən işlər deməyə əsas verir ki, tezliklə Qubadlıya da qayıdış prosesi başlayacaq.

# Müasir dövlət quruculuğunun hüquqi əsasları

Ölkəmizdə Konstitusiya və Suverenlik İli çərçivəsində silsilə tədbirlər həyata keçirilir. Bu günlərdə "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" yubiley medalı təsis edilib. Prezident İlham Əliyev yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişikliyi təsdiqləyib.

Yubiley medalı haqqında əsasnaməyə görə, Azərbaycan Konstitusiyasının hazırlanmasına, təkmilləşdirilməsinə və təbliğinə, qanunvericilik və hüquq sisteminin inkişafına, Azərbaycan Konstitusiyasının aliliyinin təmin edilməsinə, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, Konstitusiya ilə təsbit olunmuş əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə, konstitusion ideya və prinsiplərin formalaşdırılması və inkişafına töhfələr vermiş, habelə Azərbaycan dövləti qarşısında xüsusi xidmətləri olan şəxslər "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" yubiley medalı ilə təltif ediləcəklər. Medalla təltif edən qurum qismində Konstitusiya Məhkəməsi müəyyənləşdirilib.



## Müstəqil Azərbaycanın Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Əsas Qanunu

Konstitusiya və Suverenlik İlində "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" yubiley medalının təsis eddilməsi təsadüfi deyil. Konstitusiyamız dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası qismində çıxış edir. Konstitusiyanın müddəalarına istinadən həyata keçirilən məqsədyönlü siyasət Azərbaycanı zirvələrə yüksəldib, ölkəmiz son 200 ildə ən böyük zəfərlərini qazanaraq ərazi bütövlüyünü və suverenliyini tam təmin edib. Bu il tarixi qələbəmizin 5, Konstitusiyanın qəbul edilməsinin isə 30 ili tamam olur.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Sərəncamda bildirilir ki, 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı.

Uzun illərin dövlət idarəçiliyi təcrübəsinə malik olan Heydər Əliyev yaxşı başa düşürdü ki, keçmiş sovet respublikasının Əsas Qanunu ilə müstəqil Azərbaycanın yeni reallıqlarını uzlaşdırmaq və inkişafı təmin etmək əsla mümkün deyil. Beləliklə, Onun təşəbbüsü ilə müstəqil respublikamızın ilk Konstitusiyasının layihəsinin hazırlanmasına başlanıldı. 1995-ci ilin may ayında yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi Milli Məclis tərəfindən təsdiqləndi.




Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərlik etdiyi komissiya Konstitusiya layihəsinin hazırlandığı dövrdə bir neçə dəfə açıq müzakirələr keçirib. Müzakirələrdə Ulu Öndər müddəaların hər birinə şəxsən diqqət yetirib, mövqeyini bildirib və təkliflərini verib. Nəticədə, mükəmməl bir qanun layihəsi ərsəyə gəlib. Yeni Konstitusiya 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi yolu ilə qəbul olunub.

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi nəzərə alınmaqla hazırlanan Azərbaycan Konstitusiyası 5 bölmə, 12 fəsil, 158 maddədən ibarətdir. Sənəd ölkəmizin hərtərəfli inkişafı üçün geniş hüquqi əsaslar yaradır. Heydər Əliyev müstəqil Azərbaycanın tarixində xüsusi yer tutan bu qanunun əhəmiyyətini belə dəyərləndirib: "Hesab edirəm ki, qanun demokratik prinsiplərə cavab verən, demokratik parlament yaratmaq üçün əsas olan və ümumiyyətlə, respublikamızda dövlət quruculuğu sahəsində apardığımız işlər sırasında çox görkəmli yer tutan sənəddir. Mən hesab edirəm ki, bu qanunun qəbul olunması respublikamızda dövlət quruculuğu sahəsində görülən işlərin bir mərhələsidir, addımıdır, bir irəliləyişdir".

## Hüquqi və demokratik cəmiyyət quruculuğu əsas hədəflərdən biri kimi

Heydər Əliyevin müəllifliyi ilə hazırlanan Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına əsaslar yaradan çoxsaylı müddəalar yer alıb. Əsas Qanunun insan hüquqlarının səmərəli müdafiəsinə yönəlmiş ümumi müddəaları ilə yanaşı, onun ən böyük hissəsi olan "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" fəslində müasir demokratik cəmiyyətdə təmin edilməsi zəruri olan bütün insan hüquqları və əsas azadlıqlar, onların reallaşdırılmasının ümumi mexanizmləri, həmçinin ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq qanuni məhdudlaşdırılmasının yolverilən həddi təsbit edilib.

Eyni zamanda, Konstitusiyamızda demokratik cəmiyyət quruculuğu əsas hədəflərdən biri kimi müəyyənləşdirilib. Belə ki, Konstitusiyada ölkəmizdə demokratikləşmə prosesinin əhatə dairəsinin genişlənməsini, vətəndaş cəmiyyətinin fəallığının artırılmasını, fikir plüralizminin, siyasi fəaliyyət azadlığının təmin olunmasını özündə ehtiva edən çoxsaylı müddəalar yer alıb. Əsas Qanunumuza uyğun olaraq bu gün respublikamızda siyasi baxışlarından asılı olmayaraq bütün partiyaların, vətəndaş cəmiyyəti təsisatlarının fəaliyyətinə heç bir məhdudiyyət qoyulmur. Həmçinin ölkəmizdə söz, mətbuat azadlığı yüksək səviyyədə təmin olunub.

## Müxtəlif illərdə aparılan Konstitusiya islahatları

Zamanın iti axarında qarşıya yeni çağırışlar çıxır. Ölkəmizdə də sonrakı mərhələdə yeni inkişaf səviyyəsinə uyğun olaraq bir neçə dəfə Konstitusiya islahatları həyata keçirilib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Bu dəfə Konstitusiyanın 29 maddəsinə 41 əlavə və dəyişiklik olunub.

Bəhs olunan referendum ölkəmizdə idarəetmə mexanizminin təkmilləşdirilməsi istiqamətində atılan mühüm addım idi. Yeni Konstitusiya islahatlarına uyğun olaraq Azərbaycanda vitse-prezidentlik intitu formalaşdırıldı. Artıq tarixə dönən 2017-ci il referendum yolu ilə təsdiqlənən Konstitusiya islahatlarının reallaşdırılması istiqamətində mühüm il oldu. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq Sərəncama əsasən Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edildi. Hazırda respublikamızda Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Birinci vitse-prezidentlik institutu funksional təsisat kimi uğurla fəaliyyət göstərir.

*Mübariz FEYİZLİ*



# Milli Məclisin iclasında...

## 17 məsələ müzakirə olunub

*Nardar BAYRAMLI*

Oktyabrın 24-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 17 məsələ daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova parlament nümayəndə heyətinin oktyabrın 19-dan 21-dək İsveçrə Konfederasiyasının Cenevrə şəhərində işgüzar səfəri barədə məlumat verib. Onun sözlərinə görə, səfərdə məqsəd Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında iştirak etmək idi. Oktyabrın 20-də Assambleyada “Böhran zamanı humanitar normaların qorunması və humanitar fəaliyyətin dəstəklənməsi” mövzusunda müzakirələr aparılıb və MM sədri bu müzakirələrdə çıxış edib. S.Qafarova çıxışında Ermənistanın silahlı təcavüzünün faciəli nəticələri barədə məlumat verdim. Həmçinin, Assambleya çərçivəsində İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı ilə Milli Məclis arasında təşkilatın 20-ci sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə dair Anlaşma Memorandumu imzalanıb.

Bundan əlavə, Cenevrədə S.Qafarovanın sədrliyi ilə Asiya Parlament Assambleyasının Koordinasiya görüşü keçirilib. Cenevrəyə səfər çərçivəsində bir sıra ikitərəfli görüşlər də keçirilib. Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq, eləcə də Bosniya və Herseqovina və Namibiya parlamentlərinin sədrləri ilə danışıqlarda parlamentlərarası əməkdaşlığın inkişafı yolları nəzərdən keçirilib. Bununla əlaqədar Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti yüksək qiymətləndirilib, təşkilatın institusional inkişafı və beynəlxalq nüfuzunun artırılması istiqamətində görülən işlərdən danışılıb.

Oktyabrın 21-də isə spiker S.Qafarova Ermənistan parlamentinin sədri Alen Simonyanla görüşüb. “Bu, Parlamentlərarası İttifaq çərçivəsində üçüncü görüş idi. Görüşdə Vaşinqton sammitində əldə olunmuş razılaşmaların və münasibətlərin normallaşması üçün görülən tədbirlərin böyük əhəmiyyəti vurğulandı. Konstruktiv dialoqun davam etdirilməsinin vacibliyi qeyd edildi”, -deyən S.Qafarova bütövlükdə, Cenevrə səfərinin uğurlu olduğunu söyləyib.

Spiker, həmçinin 25 oktyabr tarixinin Qubadlı Şəhəri Günü olduğunu xatırladıb: “Qubadlı şəhərinin işğaldan azad edilməsi uğrunda döyüşlər 44 günlük Vətən müharibəsinin şanlı səhifələrindən biridir. Bu gün quruculuq dövrünü yaşayan Qubadlı Qarabağın və Şərqi Zəngəzurun yeni həyatını təcəssüm etdirir”.

Gündəliyin müzakirəsi zamanı ilk olaraq bir sıra məhkəmələrə yeni hakimlərin təyin olunması məsələsinə baxılıb. Qanun layihəsinə əsasən, Xəyalə Adil qızı Cəmilova və Zaur Nazim oğlu Hüseynovun Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək, Ali Məhkəmənin hakimi təyin olunması təklif edilib. Həmçinin Bakı, Sumqayıt və Gəncə Apellyasiya Məhkəmələrinə hakimlər təyin olunub. Həmid Azər oğlu Ağalarov, Fəhmin Zaur oğlu Hümbətov, Vidadi Kamal oğlu Qasımov, Fərid İlham oğlu Mədətli, Günel Arif qızı Sevdimalıyevanın Bakı Apellyasiya Məhkəməsinə, Əkrəm Sabir oğlu Qəhrəmanov, Turan Nurulla oğlu Məmmədovun Gəncə Apellyasiya məhkəməsinə, Ramin Adilxan oğlu Xəlilovun isə Sumqayıt Apellyasiya Məhkəməsinə hakim təyin edilməsi təklif olunub. Müzakirələrdən sonra məsələlər səsverməyə qoyularaq qəbul edilib.

Eyni zamanda, iclasda Fərman Abbasov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi ilə bağlı qanun layihəsi də təsdiqlənib.

İclasda, həmçinin “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Qanuna dəyişiklik edilib. Layihəyə əsasən, sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyənləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur. Qanun layihəsi sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyənləşdirilməsi sahəsində normativ-hüquqi bazanın yenilənməsi zərurəti ilə əlaqədar hazırlanıb. Bu çərçivədə adıçəkilən qanunun 19,2-ci maddəsinin dəqiqləşdirilməsini nəzərdə tutur. Belə ki, qanun layihəsi qəbul edildikdən sonra sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyənləşdirilməsinin yeni qaydaları qüvvəyə minəcək.

Bundan başqa, Milli Məclis Vergi Məcəlləsində və “Gömrük tarifi haqqında” Qanunda dəyişiklikləri üçüncü oxunuşda qəbul edib. Layihəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidentinin sənaye parkındakı həmin fəaliyyətdən əldə etdiyi mənfəət - 2025-ci il yanvarın 1-dən 6 il müddətinə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti həmin fəaliyyət prosesində istifadə etdiyi sənaye parkındakı əmlakına görə 2025-ci il yanvarın 1-dən 6 il müddətinə əmlak vergisini ödəməkdən azad edilməsi təklif edilir.

Eyni zamanda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti həmin fəaliyyət prosesində istifadə etdiyi sənaye parkındakı torpaqlara görə 2025-ci il yanvarın 1-dən 6 il müddətinə torpaq vergisini ödəməkdən azad edilməsi təklif olunur. “Gömrük tarifi haqqında” qanunun 20.0.20-ci maddəsində isə “10” rəqəminin “14” rəqəmi ilə əvəz edilməsi təklif olunub. Müzakirələrdən sonra layihə qəbul olunub.

Millət vəkilləri iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər.



# Sülh prosesinə ictimai dəstək

Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesi davamlı olaraq irəliləyir. Bu istiqamətdə daha bir mühüm addım atılıb - İrəvanda iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin heç bir vasitəçi olmadan ilk görüşü keçirilib.

Görüşdə Azərbaycan tərəfini Fərhad Məmmədov, Rusif Hüseynov, Ramil İskəndərli, Kəmalə Məmmədova və Dilarə Əfəndiyeva təmsil ediblər. Erməni tərəfindən isə Areq Koçinyan, Boris Navasardyan, Naira Sultanyan, Narek Minasyan və Samvel Meliksetyan təmsil olunublar. Görüş çərçivəsində Ermənistan və Azərbaycanın ekspert icmalarının bir qrup nümayəndəsinin təşəbbüsü və rəsmi strukturların dəstəyi ilə ikitərəfli dəyirmi masa keçirilib. Tədbirdə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da iştirak edib.

## Qalib Azərbaycanın təşəbbüsü ilə başlayan proses

Postmüharibə dövründə Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesinin təşəbbüskarı qismində respublikamız çıxış edib. Cənubi Qafqaz üç onillik ərzində qanlı müharibə meydanı olub. Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərindən etibarən həyata keçirdiyi işğalçılıq siyasəti ağır fəsadlar verib. Azərbaycanın ərazilərinin iyirimi faizi işğal altına düşüb, bir milyondan artıq soydaşımız doğma ev-eşiyini tərk etmək, ağır qaçqınlıq və məcburi köçkünlük həyatı yaşamaq məcburiyyətində qalıb. Ölkəmiz son dərəcə ağır humanitar fəlakətdən keçib. Bütün bunlara baxmayaraq, qalib Azərbaycan üçtərəfli bəyanat imzalandıqdan sonra müharibə səhifəsini çevirmək və gələcəyə baxmaq əzmini ortaya qoydu.

Azərbaycan İkinci Qarabağ müharibəsində parlaq Qələbə çalmaqla Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Bu reallıqlar regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq üçün münbit zəmin formalaşdırıb. Müharibə başa çatdıqdan sonra Prezident İlham Əliyev o mövqedən çıxış etdi ki, sülh üçün yaranan fürsətləri dəyərləndirib regionun, xalqlarımızın mənafeyi naminə fəaliyyətlər həyata keçirmək lazımdır. Respublikamızın qarşı tərəfə beş bənddən ibarət sülh paketini təqdim etməsi də bu niyyətin ifadəsi idi. Burada hər hansı bir subyektiv iddia, qalib dövlət ambisiyası ortaya qoyulmamışdı, əksinə sırf beynəlxalq hüquqa və prinsiplərə istinad edilmişdi. Təsadüfi deyildir ki, sonradan liderlər və digər səviyyələrdə baş tutan danışıqlar məhz bu baza prinsiplərinə istinad edilməklə aparılıb və təbii ki, müəyyən əlavələrlə daha da zənginləşdirilib.

Əlbəttə, ötən beş ildə sülhyartama prosesi indiki səviyyəyə çatanadək asanlıqla irəliləməyib. İlk vaxtlar Ermənistanın hərbi-siyasi elitası konstruktiv mövqe sərgiləmirdi, eləcə də bu ölkədəki revanşist qüvvələr qisasçılıq mövqeyindən çıxış edərək sülh prosesinə əngəllər yaratmağa çalışırdılar. Xatırlatmaq lazımdır ki, əvvəllər danışıqlar müxtəlif çoxtərəfli platformalar çərçivəsində baş tuturdu. Bu da, əslində, sülh quruculuğunda daha bir maneə idi. Belə ki, ayrı-ayrı platformaların iştirakçısı olan dövlətlər və beynəlxalq təşkilatlar həlledici məqamlarda iki ölkənin ortaq məxrəcə gəlməsinə açıq-aşkar maneçilik törədərək danışıqları pozurdular.

Belə olanda yenə də Azərbaycan Prezidenti İlham Əliyev tənzimləmə prosesinin ikitərəfli formatda irəli aparılması təşəbbüsündən çıxış etdi. Nikol Paşinyanın və onun komandasının bu təşəbbüsü dəstəkləməkdən başqa çıxış yolu yox idi. Çünki prosesin uzanması, zaman itkisi ilk növbədə Ermənistanın ziyanına işləyirdi. Beləliklə, sonrakı mərhələdə sülhyaratma prosesi ikitərəfli formatda davam etdirldi və müsbət nəticələr də özünü çox gözlətmədi. İkitərəfli diplomatik səylər sayəsində yekun sülh sazişinin bütün müddəaları razılaşdırıldı və artıq sənəd cari il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın və liderlərin iştirakı ilə xarici işlər nazirləri tərəfindən paraflanıb. Hazırda regionda sülh heç vaxt olmadığı qədər yaxındadır.

## Vaşinqton görüşünün davamı



Çox doğru olaraq ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Vaşinqtonda baş tutan görüş Azərbaycanla Ermənistan arasında gedən sülhyaratma prosesinin zirvə nöqtəsi kimi dəyərləndirilir. Ağ Evdə, dünyanın siyasi mərkəzində, bir nömrəli ofisdə son dərəcə mühüm razılaşmalar əldə olunub. Liderlərin bəyanatında və xarici işlər nazirlərinin parafladıqları Sazişdə sülh perspektivləri üçün mühüm əhəmiyyət daşıyan müddəalar yer alıb. Paraflanan Sazişin mətnində əsas müddəalardan biri ərazi bütövlüyü ilə bağlıdır. Azərbaycan və Ermənistan bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər. Eyni zamanda tərəflər bir-birinə qarşı hər hansı ərazi iddialarının olmadığını və gələcəkdə belə iddialar qaldırılmayacağını təsdiqləyirlər. Vaşinqtonda həmçinin Azərbaycanın əsas hissəsindən blokada şəraitində olan Naxçıvana maneəsiz keçidin təmin olunması, kommunikasiyaların açılması ilə bağlı razılığa gəlinib. Ağ Evdə əldə olunan razılaşmalara əsasən onilliklər ərzində sülhə hər hansı bir töhfə verməyən Minsk qrupu tarixin arxivinə göndərilib.

Bütün bunlar Azərbaycanın yaratdığı reallıqların beynəlxalq səviyyədə təsdiqi olmaqla yanaşı, sülh quruculuğu üçün fundamental şərtlərdir. Vaşinqton razılaşmaları ilə keçmiş Qarabağ münaqişəsi mövzusu beynəlxalq gündəlikdən tamam çıxarılıb. Bunu Ermənistan rəhbərliyi də verdiyi çoxsaylı bəyanatlarla təsdiqləyib.

İki ölkənin vətəndaş cəmiyyətlərinin təmsilçilərinin İrəvanda bir araya gəlmələrini də Vaşinqton görüşünün davamı və yaxud tərkib hissəsi kimi dəyərləndirmək mümkündür. Artıq sülhə hər iki ölkədən ictimai dəstək də gəlir. İndi fəal diplomatiya ilə, qarşılıqlı etimad quruculuğunu hədəfləyən tədbirlərlə sülh prosesinə ictimai dəstəyi daha da gücləndirmək lazımdır. Yeri gəlmişkən, indiki mərhələdə Azərbaycan qarşılıqlı etimad quruculuğunda yenə də liderlik mövqeyi sərgiləyir. Bir neçə gün bundan əvvəl Prezident İlham Əliyev Qazaxıstana uğurlu dövlət səfəri çərçivəsində Azərbaycanın Ermənistana yüklərin tranzitinə dair bütün məhdudiyyətləri aradan qaldırması ilə bağlı bəyanat verməsi qarşılıqlı etimad quruculuğu üçün çox mühüm addımdır. Azərbaycan sülhə sadiqliyini növbəti dəfə təsdiqləyib. Artıq respublikamızın hava məkanı ilə Ermənistana Qazaxıstan taxılının tədarükünə start verilib. Bu, Ermənistanın ağır blokada şəraitindən çıxması deməkdir. Təsadüfi deyildir ki, Baş nazir Nikol Paşinyan buna görə Prezident İlham Əliyevə təşəkkür edib. Başlanan proses daha güclü səylərlə irəli aparılmalıdır.

*Mübariz ABDULLAYEV*

## Sülh yolunda atılan mühüm addım - vətəndaş cəmiyyətlərinin təması

Bu reallıq fonunda hər iki ölkədə vətəndaş cəmiyyətlərinin də sülhə hazırlanması çox vacibdir. Münaqişənin davam etdiyi üç onillik ərzində həm Azərbaycanda, həm də Ermənistanda insanlar müharibənin fəsadlarını öz həyatlarında hiss ediblər, məhrumiyyətlər yaşayıblar, minlərlə gəncin həyatına son qoyulub. Bütün bunlar hər iki cəmiyyətin kədəri və ağrısıdır. Belə bir vəziyyətdə liderlər və digər yüksək səviyyələrdə aparılan fəal diplomatiya ilə yanaşı, vətəndaş cəmiyyətlərinin təmsilçiləri arasında təmaslar da bir zərurət qismində çıxış edir. Dünyanın ayrı-ayrı bölgələrində zaman-zaman qanlı müharibələr baş verib. Ancaq ölkələr və insanlar arasında düşmənçilik əbədi olmayıb, müəyyən müddətdən sonra tərəflər əlaqələr qurublar, gediş-gəliş yaranıb.

Sülhə yaxınlaşan Aazərbaycan və Ermənistan da bu mərhələni keçməlidirlər. İrəvanda təşkil olunan vətəndaş cəmiyyəti təmsilçilərinin görüşü də qeyd olunan istiqamətdə atılan mühüm addımdır. Görüş zamanı siyasi məsələlər deyil, Ermənistan və Azərbaycan arasında sülh prosesinin perspektivləri, humanitar məsələlər, normallaşmış münasibətlər kontekstində iqtisadi və logistik imkanlar və gələcək etimad quruculuğu tədbirləri də daxil olmaqla iki ölkənin cəmiyyətlərini narahat edən geniş mövzulara toxunulub. Qrupun birgə fəaliyyət planlarının və perspektivlərinin işlənib hazırlanmasına xüsusi diqqət yetirilib.

Beləliklə, Azərbaycan və Ermənistan arasında aparılan danışıqların yalnız siyasi müstəvidə deyil, ictimai səviyyədə də dəstəklənməsi və ümumilikdə etimad quruculuğu tədbirlərinə start verilməsi böyük nikbinlik yaradır. Diqqətəlayiq haldır ki, Qərb institutları bu prosesdən kənarda saxlanılıb. Biz xatırlayırıq ki, uzun illər ərzində Qərb dairələri bu sahədə təşəbbüsü öz əlində saxlayıb və öz iradələrini diqtə ediblər. Zaman-zaman onların vasitəçiliyi ilə vətəndaş cəmiyyətləri nümayəndələrinin görüşləri də baş tutub. Ancaq bütün bunlar formal xarakter daşıyıb, hətta keçirilən hər belə görüşdən sonra cəmiyyətlər yaxınlaşmaq əvəzinə, bir-birlərindən daha da uzaqlaşıblar. Amma indi Azərbaycan və Ermənistan heç bir kənar müdaxilə olmadan etimad quruculuğu prosesini həyata keçirirlər.

Əlbəttə, bir görüşlə bütün olub-keçənləri unutdurmaq mümkün deyil. Qeyd etdiyimiz kimi yaralar dərindir və onların sağalması, qaysaq bağlaması üçün zaman, səbr və iradə lazımdır. Əsas odur ki, artıq cəmiyyətlərin birbaşa, vasitəçilərsiz təmaslarına start verilib. Vətəndaş cəmiyyəti nümayəndələri ilə başlayan ilk görüş və nəzərdə tutulan uzunmüddətli tədbirlər prsosesinin iki ölkənin birgə sülh şəraitində yaşaması zərurətinə dəlalət edir. Biz hələ yolun başlanğıcındayıq. Qarşıda hər iki xalqı uzun bir proses gözləyir.

# Bakı-Vaşinqton əlaqələrində yeni harmoniya...

## “ABŞ Cənubi Qafqazda: Yeni strateji imkanların müəyyənləşdirilməsi” mövzusunda konfrans keçirilib

### ABŞ Azərbaycanla münasibətləri dərinləşdirməkdə qərarlıdır

Post-müharibə reallıqları, sülh təşəbbüsləri və yeni nizamda regional aktor kimi ön plana çıxması Azərbaycanı, eləcə də, Cənubi Qafqazı qlobal mühitin diqqət mərkəzinə salıb. Strateji geocoğrafi ərazidə təhlükəsizlik arxitekturası yaratması, iqtisadi əməkdaşlıq perspektivlərini gücləndirməsi, ən əsası isə qütblərarası, hətta sivilizasiyalararası münasibətlərin inkişafına verdiyi töhfə Azərbaycanın aparıcı güc kimi əhəmiyyətini artırıb. Nəticə etibarı ilə rəsmi Bakının bütün platformalar üzrə yaxın tərəfdaş, inamlı əməkdaş statusu daha da möhkəmlənib. Dünyanın aparıcı güc mərkəzi kimi xarakterizə olunan ölkələr Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduqlarını irəli sürürlər. Azərbaycan da bu münasibətin qarşılığında hər zaman dostluq və işgüzar əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi üçün səy göstərir.

Bu kontekstdə bugünkü Azərbaycan - Amerika Birləşmiş Ştatları münasibələri xüsusi bir yer tutur. Donald Trampın yenidən dövlət başçısı seçilməsi ilə ABŞ - Azərbaycan münasibətləri yeni mərhələyə qədəm qoyub - son dövrlərdə daha yüksək temp qazanan əməkdaşlıq əlaqələri bütün strateji istiqamətlər üzrə irəliləyib. Bəlli olduğu kimi, rəsmi Vaşinqton dünyanın iqtisadi-siyasi nəbzini formalaşdıran mühüm güc mərkəzlərindən biri sayılır. Nəhəng iqtisadiyyata, müqayisəyəgəlməz siyasi çəkiyə malik olan bu dövlətin son proseslərdə Cənubi Qafqaza, xüsusilə Azərbaycana diqqət yetirməsi bir sıra mətləblərdən xəbər verir. Xüsusilə bu ilin avqustunda Vaşinqtonda Ermənistan ilə Azərbaycan arasında sülh sazişi layihəsinin paraflanması, üç ölkənin rəhbərinin imzaladığı Bəyannamənin qəbulu bu münasibətləri daha da yaxınlaşdırıb.

### ABŞ - Azərbaycan münasibətləri müzakirə olunur...

Qeyd edək ki, münasibətlərin daha da inkişaf etdirilməsi Azərbaycana, ümumilikdə, Cənubi Qafqaza vacib olduğu qədər ABŞ-ın da əsas siyasi prioritetlərindəndir. Yeri gəlmişkən, Vaşinqtonda “Hudson” İnstitutunun təşkilatçılığı ilə “ABŞ Cənubi Qafqazda: Yeni strateji imkanların müəyyənləşdirilməsi” mövzusunda konfrans keçirilib. Konfrans ABŞ-ın vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında Vaşinqtonda imzalanan sazişə, regional proseslərə həsr olunub. Konfransda ABŞ-ın aparıcı ekspertləri və rəsmi şəxslər iştirak edib. Açılış nitqi ilə çıxış edən “Hudson” İnstitutunda Yaxın Şərqdə Sülh və Təhlükəsizlik Mərkəzinin direktoru Mayk Doran Ağ Evdə avqustun 8-də Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə keçirilən görüşün təkcə uzun müddət münaqişə ilə yadda qalan regionda davamlı sülhü bərpa etmək üçün deyil, həm də Birləşmiş Ştatlar üçün yeni imkanlar yaratdığını bildirib. Onun sözlərinə görə, razılaşma Avropa, Yaxın Şərq və Mərkəzi Asiya arasında əlaqələri yenidən formalaşdıra biləcək fürsətlər doğurur.

Daha sonra Mayk Doranın moderatorluğu və Xəzər Siyasət Mərkəzinin Prezidenti Əfqan Nifti, Amerika Xarici Siyasət Şurasının vitse-prezidenti İlan Berman və “Hudson” İnstitutunun aparıcı eksperti Luk Koffinin iştirakı ilə “Ermənistan-Azərbaycan sülhünün regional təsirləri” mövzusunda panel müzakirə baş tutub. Ekspertlər sülh razılaşmasının daha geniş regiona təsirləri, Mərkəzi Asiya ölkələrinin əldə edəcəyi faydalar, regional ölkələrin baş verən proseslərdəki rolu, Türk dünyasının artan nüfuzu, regional layihələrin inkişaf perspektivləri, TRIPP layihəsi barədə müzakirələr aparıblar.



### Daha firavan, vacib və təhlükəsiz gələcəyə doğru

Tədbirdə çıxış edən ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Dayns sülh razılaşmasının Tramp administrasiyasının Cənubi Qafqazda sülh əldə etməyi prioritet hesab etdiyi vaxtda baş verdiyini deyib. Onun sözlərinə görə, həm Ermənistan, həm də Azərbaycan ABŞ-la unikal tərəfdaşlıq şəraitində müstəqil gələcəyə doğru üz tutub. Amerika Birləşmiş Ştatları regional sülhə bütün ölkələrin xeyrinə olacaq konkret sərmayələr qoyur. Senator əlavə edib ki, avqustun 8-də əldə olunan razılaşmanın açdığı iqtisadi potensial çox əhəmiyyətlidir. Vurğulayıb ki, Azərbaycan - Ermənistan sülh sazişi diplomatik irəliləyişdir, həqiqətən, qarşılıqlı faydalı sülhməramlılıq nümunəsidir. Ermənistan, Azərbaycan və ABŞ daha firavan, vacib və təhlükəsiz gələcəyə doğru addımlayır və çalışır. Bakı dünyanın ən mühüm qaz və neft ixracatçılarından biridir. Onun sözlərinə görə, ata Corc Buşdan indiyədək ABŞ-ın hər bir Prezidenti Ermənistanla Azərbaycan arasında münaqişənin həllini tapmaq üçün sülh təşəbbüslərini irəli sürdü, lakin hamısı uğursuz olub. “Bu, Tramp administrasiyasının Cənubi Qafqazda sülh əldə etməyi prioritet hesab etdiyi bir vaxtda baş verdi. Həm Ermənistan, həm də Azərbaycan ABŞ-la unikal tərəfdaşlıq şəraitində müstəqil gələcəyə doğru üz tutdu. Deməliyəm ki, Stiv Uitkofun komandası dərhal bu müqavilənin ən çətin məsələlərini həll etməyə başladı. Amerikalı natiqlər “Tramp marşrutu” innovativ konsepsiyası ilə çıxış etdilər. TRIPP layihəsi Azərbaycanı Naxçıvanla birləşdirəcək, eyni zamanda, yeni bir ticarət yolu yaradacaq. Təbii ki, Azərbaycan, Ermənistan və digər regional dövlətlər bundan faydalanacaq”,- deyə senator əlavə edib.

### Vaşinqtonda imzalanan saziş tarixidir və hər kəs üçün əla fürsət yaradır...



Tədbirdə çıxış edən Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim bildirib ki, Vaşinqtonda avqustda imzalanmış saziş tayı-bərabəri olmayan sıçrayışdır, tarixidir və hər kəs üçün əla fürsət yaradır. “Azərbaycan Prezidenti Ermənistana ölkə ərazisindən istənilən tranzitə icazə verib. Düşünürəm ki, Ermənistanın baş naziri Paşinyan da bunu yüksək qiymətləndirib və yəqin ki, bununla bağlı müəyyən qarşılıqlı fəaliyyətlər olacaq. 90-cı illərin əvvəllərində müzakirələrimizdə o mesajı verməyə çalışırdıq ki, birlikdə hərəkət etsək, bu, hamımıza fayda verər. Amma bu baş vermədi. Yalnız indi gerçəkləşdi. Azərbaycan ABŞ-ın və bəzi digər tərəfdaşların böyük dəstəyi ilə iki ölkənin bir yerdə olmasına nail oldu”, - deyə səfir əlavə edib.

Xəzər Siyasət Mərkəzinin Prezidenti Əfqan Nifti isə bildirib ki, hazırda regionda böyük canlanma görürük. O qeyd edib ki, nəhayət, Cənubi Qafqaz vasitəsilə Mərkəzi Asiyanın qlobal bazara daha sərfəli şəkildə qoşula biləcəyini görmək üçün şans var. “Beləliklə, bu sülh sazişi həm də bizim dostlarımızı, təkcə Qafqazı deyil, Mərkəzi Asiyanın bütün beş ölkəsini həyəcanlandırır. Nəhayət biz regionun bütün səkkiz ölkəsinin marağının eyni olduğunu görürük. İndi biz onların birlikdə edə biləcəyi məsələ haqqında danışa bilərik. Burada onlar xariclə ticarətlərini sərbəst şəkildə tarazlaşdıra bilərlər”.

### Cənubi Qafqaz artıq kənar region deyil...

Tədbir çərçivəsində Mayk Doran və Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahimin iştirakı ilə “ABŞ-Azərbaycan münasibətlərinin gələcəyi” mövzusunda panel müzakirə baş tutub. Çıxış edən Mayk Doran bildirib ki, Ağ Evdəki görüş uzun müddət münaqişə ilə yadda qalan regionda davamlı sülhün mümkünlüyü ilə yanaşı, Birləşmiş Ştatlar üçün yeni imkanların yaranmasından xəbər verdi. O bildirib ki, bu, Avropa, Yaxın Şərq və Mərkəzi Asiya arasında əlaqəni yenidən formalaşdıra biləcək imkanlar yaradır. “Tramp administrasiyası başa düşür ki, Amerikanın maraqları baxımından Cənubi Qafqaz artıq kənar region deyil. Bu bölgə qlobal geosiyasətdə vacib nöqtəyə çevrilir. Ora dünyanın bütün böyük dövlətlərinin maraqlarının kəsişdiyi, bəzən yaxınlaşdığı, bəzən də toqquşduğu bir nöqtədir. Xüsusilə, Azərbaycan ABŞ üçün mühüm tərəfdaş kimi seçilir. Bura Qərb üçün regionun böyük resurslarına və strateji yollarına qapıdır. Enerji qovşağı, tranzit dəhlizi, həmçinin Rusiya, Türkiyə və Xəzər hövzəsi arasında yerləşən təhlükəsizlik müttəfiqi kimi Bakı unikal rol oynayır”, - deyə o əlavə edib.

### Amerikalı ekspertin təklifi...



Çıxış edən “Hudson” İnstitutunun aparıcı eksperti Luk Koffi deyib ki, Cənubi Qafqazda, ABŞ-Azərbaycan münasibətlərində baş verənlərdən çox nikbindir. O bildirib ki, ikitərəfli əlaqələrə yeni diqqət və enerji gətirməyin vaxtı çoxdan çatıb. “Avqustun 8-də Prezident Trampın iştirakı ilə Ağ Evdəki görüş bu münasibətlər üçün yeni başlanğıc nöqtəsidir. Mən düşünürəm ki, iqtisadiyyat, biznes, ticarət, enerji və təhlükəsizlik kimi bir çox sahələrdə ABŞ və Azərbaycanın ortaq maraqları var. Ümid edirəm ki, bundan sonra iki ölkə arasında daha sıx əməkdaşlığın şahidi olacağıq”, - deyə o, əlavə edib.

Ekspert qeyd edib ki, bu münasibətləri növbəti mərhələyə qaldırmaq üçün ən vacib və eyni zamanda, ən asan addımlardan biri Prezident Trampın Azərbaycana səfəri olardı. O, həmçinin ABŞ dövlət katibi səviyyəsində Türk Dövlətləri Təşkilatı (TDT) ilə görüş və ya sammitin keçirilməsi təklifini irəli sürüb. O bildirib ki, Türk dünyası Avrasiyanın quru hissəsində yaranmaqda olan bir qütbdür və ABŞ siyasətçiləri üçün bunu başa düşmək, tanımaq və bununla məşğul olmaq vaxtıdır. “İstanbula gedəndə bir neçə saat vaxt ayırıb TDT-nin baş qərargahını ziyarət edin. Bu təşkilat haqqında daha çox məlumat əldə edin, çünki onun getdikcə daha vacib olduğunu düşünürəm”, - deyə o diqqətə çatdırıb.

Amerika Xarici Siyasət Şurasının vitse-prezidenti İlan Berman isə deyib ki, sülh sazişi ortamüddətli perspektivdə Cənubi Qafqazın tam inteqrasiyasına mane olan münaqişəni həll edəcək. O bildirib ki, indi söhbət Mərkəzi Asiya ilə Cənub Qafqaz arasında həqiqətən də regionlararası əməkdaşlıqdan gedir. “Bu razılaşma nəticəsində Cənubi Qafqaza qarşı yeni diqqət yaranıb”, - deyə o əlavə edib.

***P.İSMAYILOV***

# Azərbaycan və Serbiya strateji tərəfdaşlığı möhkəmləndirmək niyyətindədir

## Hökumətlərarası Komissiyanın 9-cu iclasında iqtisadi və investisiya əməkdaşlığının genişləndirilməsi qərara alınıb

Azərbaycan və Serbiya arasında yaxın tərəfdaşlıq münasibətlərinin son illərdə inkişafı yüksələn templə davam etməkdədir və hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri və imzalanan sənədlər, hökumət nümayəndə heyətlərinin görüşləri, biznes-forumların keçirilməsi iqtisadi hərarəti daha da dərinləşdirməkdədir. Hər iki ölkə iqtisadi platformada ortaq maraqlara xidmət edən təşəbbüslər və əməkdaşlıq formatını da əsas gündəliyə çevirib və regionda yeni yaradılan enerji-kommunikasiya, nəqliyyat xətlərində birgə təmsil olunmaq iradələrini nümayiş etdirməkdədir.

Oktyabrın 23-də Azərbaycan və Serbiya ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 9-cu iclasında iqtisadi və investisiya əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı ticarət əlaqələrinin dərinləşdirilməsi məsələləri müzakirə olunub. Serbiyanın Baş nazirinin müavini, iqtisadiyyat naziri Adriyana Mesaroviç bildirib ki, dövlətlər arasında fəal siyasi dialoq qurulub, hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində, xüsusən də ərazi bütövlüyü və suverenlik məsələlərində hər zaman bir-birini dəstəkləyib. Parlamentlərarası əməkdaşlığın dövlətlərarası münasibətlərin inkişafında rolu təqdir edilib. İki ölkə arasında həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament platformaları çərçivəsində səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulanıb. Bildirilib ki, Azərbaycan və Serbiya arasında indiyədək 57 sənəd imzalanıb, daha 13 sənəd baxılma mərhələsindədir və tezliklə imzalanacaq. Həmin müqavilə və sənədlər müasir əməkdaşlıq gündəliyinin genişlənməsinə və potensialların reallaşdırılmasına, o cümlədən enerji sektorunda dayanıqlı təminatlara möhkəm hüquq baza yaradır.

### İqtisadi əlaqələrin inkişafı üçün güclü potensial mövcuddur

Azərbaycanın maliyyə naziri Sahil Babayev bildirib ki, son illərdə tərəflər arasında iqtisadi əlaqələr yüksələn xətt üzrə inkişaf edir. Ölkələr arasında ticarət-iqtisadi əlaqələrin inkişafında müsbət dinamikanın mövcudluğuna baxmayaraq, mövcud statistik göstəricilər real potensialı əks etdirmir və siyasi münasibətlərin səviyyəsinə uyğun gəlmir. Xanım Brnabiçin vurğuladığı kimi hökumətlərarası əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanları səfərbər etmək vacibdir. Ümumilikdə, hər iki ölkə qarşılıqlı əlaqələri daha da irəliyə aparmaq, strateji tərəfdaşlıq münasibətlərini möhkəmləndirmək və birgə layihələrin icrasını təşviq etmək üçün iradəyə malikdir və bu dayanıqlı potensialdan istifadə etmək niyyətini gizlətmir. A.Brnabiçin qeyd edib ki, enerji, infrastruktur, aviasiya, kənd təsərrüfatı və mədəni-humanitar sahələrdə mövcud əməkdaşlıq imkanlarının qarşılıqlı faydalı layihələrin reallaşdırılması üçün geniş perspektivlər açır.

Görüşdə iki ölkənin Maliyyə nazirlikləri arasında əməkdaşlığın inkişaf etdirilməsi, o cümlədən təcrübə mübadiləsinin aparılması imkanları müzakirə edilib və bu məqsədlə Anlaşma Memorandumunun imzalanması istiqamətində müvafiq tədbirlərin görülməsi barədə razılıq əldə olunub.



### Pan-Avropa enerji ailəsinin üzvü

Serbiya hökuməti Azərbaycanın regionda və qlobal miqyasda etibarlı enerji ölkəsi kimi durmadan nüfuzunun artdığını, ələxusus da qaz sahəsində yeni tərəfdaşların enerji ailəsinə daxil olduğunu təqdir edərək bu enerji zəncirində ölkəsinin də yer aldığını xatırladıb. Qeyd edək ki, Azərbaycanın müəllifi olduğu Cənub Qaz Dəhlizi koalisiyasında yer alan Avropa İttifaqı (Aİ) ölkələrindən biri kimi Serbiya ilə sıx əməkdaşlıq 3 ildir ki, müsbət dinamika üzrə davam etməkdədir. 2023-cü ildə Azərbaycanın Energetika Nazirliyi ilə Serbiyanın Mədənçilik və Energetika Nazirliyi, eləcə də SOCAR və “Srbijagas” arasında əməkdaşlığın təşviqinə dair Anlaşma Memorandumu və qaz satışına dair Müqavilə imzalanıb. Həmin sənədlərin icrası 2023-cü ildən təmin edilməyə başlayıb və Bolqarıstan-Serbiya İnterkonnektoru vasitəsilə Serbiyaya çatdırılması mümkün olub.

Hazırda Azərbaycan 14 ölkəyə qaz ixrac edir ki, 10-u Avropa dövlətidir. Ölkəmiz Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiyaya qaz nəqlini təmin etməkdədir. Bu yüksək etimad və sadiq tərəfdaşlığın nəticəsidir ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, respublikamısdan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və möhkəmləndirilməsində böyük dəyişiklik yaradır.

### Yol xəritəsi hər iki ölkənin KOB-ları arasında əlaqələri təşviq edir

Hökumətlərarası Komissiyanın iclası çərçivəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Serbiyanın İnkişaf Agentliyi (RAS) əməkdaşlığa dair Yol Xəritəsi təsdiq edilib. Sənəd 2022-ci ildə KOBİA və Serbiyanın İnkişaf Agentliyi arasında imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumunun icrası istiqamətində fəaliyyətin təşkilini nəzərdə tutur. 2026-2027-ci illəri əhatə edən yol xəritəsində Azərbaycan və Serbiya KOB-ları arasında əlaqələrin qurulmasına dəstək, KOB-larla bağlı tədbirlər, onlar üçün ən yaxşı dəstək mexanizmləri və biznes imkanları haqqında məlumat və təcrübə mübadiləsi, KOB-larla əlaqəli təşkilatlar arasında əməkdaşlığın qurulması, mövcud məlumatların qarşılıqlı şəkildə paylaşılması, tərəflərin təşkilatçılığı ilə keçirilən tədbirlərdə iştiraka dəstək və digər məsələlər öz əksini tapıb.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Hökumətlərarası Komissiyanın iclasında və Azərbaycan-Serbiya biznes forumundakı çıxışlarında KOB-ların inkişafı sahəsində əməkdaşlığın genişləndirilməsinin önəmini vurğulayıb. O, KOB evi ilə bağlı təcrübənin paylaşılması və agentliyin təşəbbüsü ilə irəli sürülmüş Bakı İqlim Bəyyanaməsinə qoşulma kimi istiqamətlərin əməkdaşlığa töhfə verəcəyini qeyd edib.

***E.CƏFƏRLİ***

## Zəngəzur dəhlizinin (TRIPP) açılması Orta Dəhliz coğrafiyasında yerləşən Türk dövlətlərini sıx birləşdirəcək

# Cənubi Qafqaz regionunun yeni nəqliyyat xəritəsi müəyyənləşir

Oktyabrın 21-də Astanada Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə keçirilən Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şurasının ikinci iclasında Mərkəzi Asiya-Xəzər iqtisadi bağlantılarının əhəmiyyətinə, eləcə də Türk dövlətləri arasında dərinləşən ticari-investisiya bağlantılarına dair mühüm fikirlər səsləndirilib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan və Qazaxıstan regional təşkilatlarda sıx əməkdaşlıq edərək enerji-nəqliyyat və logistika sahələrində birgə səyləri intensivləşdirərək yeni nailiyyətlər əld etməkdədir. Nəqliyyat əməkdaşlığının ən mühüm bloku olan Orta Dəhliz üzrə atılan birgə addımlar tranzit daşımalarının artmasına müsbət töhfə verir. Yeri gəlmişkən, səfər çərçivəsində Prezidentlər - İlham Əliyev və Kasım-Jomart Tokayevin iştirakı ilə "Orta Dəhlizin inkişafı" birgə layihəsinin təqdimatı bir daha iki qardaş dövlətin qlobal nəqliyyat alyansında qətiyyətini və yorulmaz iradəsini əks etdirir. Çin və Orta Asiya ölkələrini Avropa dövlətləri ilə birləşdirməkdə əsas nəqliyyat-logistika marşrutu olan Orta Dəhliz regional və qitələrarası ticarətin möhkəmlənməsində strateji rol oynayır. Çindən Azərbaycana daşımaların həcmi getdikcə çoxalır və 2030-cu ilədək bunun hazırkı dövrlə müqayisədə 3 dəfə artması proqnozlaşdırılır. Bu isə öz növbəsində layihənin əhəmiyyətini daha da artırır. Bu baxımdan Azərbaycan və Qazaxıstan Orta Dəhlizin səmərəsini və rəqabətqabiliyyətliliyini artırmaq istiqamətində yeni təşəbbüslər üzərində çalışır.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin vurğuladığı kimi bölgənin ən iri infrastruktur layihələrindən biri olan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzrə yükdaşımaların həcmi 62 faiz artıb və 4,5 milyon ton təşkil edib. Bu ilin nəticələri də ümidvericidir, artım 2 faiz təşkil edib. Xarici tərəfdaşlarla "darısqal yerlər" adlanan problemlərin sinxron şəkildə aradan qaldırılması, dəhliz boyunca uzunmüddətli vahid tariflərin müəyyənləşdirilməsi üzərində işləyirik. Sözsüz ki, bu addımlar səmərəliliyi artıracaq, bütün marşrut üzrə fasiləsiz tədarükləri təmin edəcək və bizim planlaşdırdığımız kimi, yükdaşımaların həcmini 10 milyon tona çatdırmağa imkan verəcək.

## "2022-2027-ci illər üçün Yol Xəritəsi"nin hədəfləri reallaşır

2022-ci ildə Aktauda Türkiyə, Azərbaycan və Qazaxıstan ərazilərindən keçən Orta Dəhlizin inkişafı və istismarı üzrə "2022-2027-ci illər üçün Yol Xəritəsi" imzalanıb. Sənəd üç ölkənin nəqliyyat-logistika infrastrukturunun sinxron inkişafını, əməliyyatların optimallaşdırılmasını, əlavə yük axınının cəlb edilməsini, vahid tarif siyasətinin həyata keçirilməsini, logistika mərkəzləri şəbəkəsinin inkişafını və digər əsas məsələlərin həllini nəzərdə tutur. Həmçinin Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlər tərəfindən imzalanan Qarabağ Bəyannaməsində Orta Dəhlizə inteqrasiyanın gücləndirilməsində dair niyyətlər ifadə olunub. Bəyannamədə Orta Dəhlizin daha rentabelli və dayanıqlı işləməsi üçün TDT ölkələri tərəfindən nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması və rəqəmsallaşdırılması, daha çox yükdaşıma həcminin artırılması məqsədilə özəl sektor üçün stimullaşdırıcı mexanizmlərin tətbiqi nəzərdə tutulur. Bu məqsədlə tərəflər dəniz limanları, dəmir və avtomobil yolları, logistika qovşaqlarının əsaslı şəkildə yenidən qurulması və infrastrukturların təmirinə investisiyalarını cəlb edilməsi, nəqliyyat əməliyyatları və gömrük prosedurlarının optimallaşdırılması üçün üzərinə öhdəliklər götürüb.

Yaxın illərdə Zəngəzur dəhlizinin açılması Orta Dəhlizin ən mühüm xətti kimi region ölkələri - Mərkəzi Asiya-Xəzər-Avropa coğrafiyası üzrə Türk dövlətləri arasında nəqliyyat və logistika ilə bağlı məsələlərdə ötürücülük qabiliyyətini xeyli artıracaq.



## Azərbaycan və Qazaxıstanın təşəbbüsü sayəsində...

"Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının gündəliyində yer alan əsas prioritetlərdən biri Orta Dəhlizlə daşınan yüklərin həcmini artırmaq üçün infrastrukturu daha da inkişaf etdirməkdir. Bu plana uyğun olaraq, dəhlizin bir çox coğrafiyalarında əsaslı yenidənqurma işləri aparılıb, Mərkəzi Asiya bölgəsində dəmir yolu və liman infrastrukturları müasirləşdirilib, digər nəqliyyat xətləri ilə birləşdirilib. Qazaxıstan "Trans-Xəzər"də zəruri nəqliyyat infrastrukturlarını yeniləşdirib. Məngistay vilayətində uzunluğu 64 kilometr olan Kurık və Jetıbay kəndlərini birləşdirən respublika əhəmiyyətli yolun əsaslı təmirini başa çatdırıb. Kurik limanı Azərbaycanın Beynəlxalq Dəniz Limanı ilə əlaqələndirilib. Aktau ilə yanaşı, həmin limandan daşınan beynəlxalq yüklər Xəzər dənizi vasitəsilə Bakı Beynəlxalq Limanına,oradan isə Gürcüstan,Türkiyə və Avropa ölkələrinə göndərilməkdədir.

Orta Dəhliz ailəsinin digər üzvü Özbəkistan da öz nəliyyat infrastrukturlarını yeniləyərək şaxələndirmədə fəal rol alır. Bir müddət əvvəl Özbəkistan-Qırğızıstan-Çin yeni dəmir yolunun inşası razılaşdırılıb və bu layihənin icrası "Avrasiya Marşrutu"nu rolunun artırılmasına hesablanıb. Eləcə də "Tacikistan Dəmir Yolları" nəqliyyatın səmərəli işləməsi üçün infrastrukturu inkişaf etdirmək, təkmilləşdirmək, optimal nəqliyyat marşrutları, kommunikasiyalar qurmaq yönündə tədbirlər həyata keçirməkdədir. Türkiyə Dövlət Dəmir Yolları da Orta Dəhlizdə yükdaşımaları artırmaq üçün öz səylərini gücləndirməkdədir.

Layihənin yaradıcılarından biri olan Azərbaycan Orta Dəhilzə inteqrasiya istiqamətində fasiləsiz infrastrukturları yeniləyib, Bakı-Tbilisi-Qars dəmir yolu xətti modernləşdirilib, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının yükgötürmə və yükötürmə gücü artırılıb, qonşu ölkələrlə nəqliyyat bağlatılarının çevikliyi təmin olunub.

## Sərfəli tarif dərəcələri müəyyənləşir

Orta Dəhliz ailəsinin 2025-ci ildə planlaşdırdığı hədəflərdən biri də tarif dərəcələrinə düzəlişlərdir. Tərəflər hazırda nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması üçün stimullaşdırıcı mexanizmlərin tətbiqini nəzərdən keçirir. Həmin mexanizmlər dəniz limanları, dəmir və avtomobil yolları, logistika qovşaqlarında əməliyyatlar və gömrük prosedurlarının asanlaşdırılmasını, sərfəli tariflərin tətbiqini nəzərdə tutur. Ötən ilin sonlarında Orta Dəhliz boyu "Bir pəncərə" prinsipindən istifadə edilməsi, tranzit gömrük prosedurlarının sadələşdirilməsi, yük və nəqliyyat vasitələrinin sərhədkeçmə proseslərinin sürətləndirilməsi mexanizmlərinin hazırlanması məqsədilə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Gürcüstan gömrük xidmətlərinin rəhbərləri, eləcə də Ümumdünya Gömrük Təşkilatının və Türk Dövlətləri Təşkilatının rəhbərliyi, BMT-nin Avropa üçün İqtisadi Komissiyasının nümayəndələri bir araya gələrək güzəştli tarif dəhlizinin yaradılmasına razılıqlarını bəyan ediblər.

Azərbaycan həmin razılaşmadan irəli gələn tələblərə qısa bir müddətdə əməl edərək Transxəzər Gömrük Tranzit Portalını istifadəyə verib. Digər ölkələr də eyni elektron resursların yaradılmasını yaxın vaxtlarda başa çatdırmağı planlaşdılırır.

Beləliklə, Orta Dəhlizdə yer alan Türk ölkələrin vahid nəqliyyat şəbəkəsinin yaradılması və dəhlizin sinxronlaşdırılması tədbirləri tranzit həcmlərini yüksəltməklə, bölgə dövlətlərinin iqtisadi-ticari imkanlarını daha da böyütmüş olacaq.

***E.CƏFƏRLİ***

## Yüz il öncə başlayan fikirlər davam edir...

# Bir dil, bir ruh, bir gələcək!

## Birinci Türkoloji Qurultayın sönməz işığı

1926-cı ilin fevralında Bakıda keçirilən Birinci Türkoloji Qurultayda irəli sürülən bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar davamlı xarakter daşımaqdadır. Bir sözlə, türk dünyasının vahid ailə şəklində formalaşması istiqamətində mühüm nailiyyətlər qazanılır. 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür.

Bir neçə gün öncə isə - 22 oktyabr 2025-ci il tarixində Prezident İlham Əliyev Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi barədə Sərəncam imzalayıb. Ölkə başçısı Qəbələdə keçirilən Sammitdəki çıxışında bildirmişdi ki, ortaq tarix və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir: "Burada 1926-cı ildə Bakıda təşkil edilmiş birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulamaq istərdim. Gələn il birinci Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif edirəm. Əminəm ki, Zirvə Görüşümüz qəbul edəcəyimiz qərarlarla Türk Dövlətləri Təşkilatının mövqeyini daha da gücləndirəcək, xalqlarımızın rifahına və təhlükəsizliyinə əlavə töhfə verəcək".

Filologiya elmləri doktoru, professor Nizami Cəfərov Birinci Türkoloji Qurultaydan sonra türk dünyasının keçdiyi 100 illik tarixi yol, məlum Sərəncamın türk dövlətləri arasında həmrəyliyin gücləndirilməsi istiqamətində əhəmiyyəti barədə "Yeni Azərbaycan"a açıqlama verib.

Professor qeyd edib ki, ölkə başçısının Birinci Türkoloji Qurultayın 100 illiyini türk dünyası miqyasında, ümumiyyətlə, dünya miqyasında böyük təntənə ilə keçirilməsi ilə bağlı verdiyi Sərəncam tarixi hadisədir: "Keçən əsrin 20-ci illərinin əvvəllərindən başlayaraq türk dünyasında ərəb əlifbasından latın əsaslı əlifbaya keçməsi barədə güclənən ideya ona gətirib çıxardı ki, türk xalqlarının ziyalıları bir yerə toplaşdılar. Onlar böyük bir həmrəylik nümayiş etdirərək, 1926-cı ildə Bakıda Birinci Türkoloji Qurultayda toplandılar və yeni əlifbanı qəbul etdilər. Bu proses elə də rahat getmədi, çünki, türk xalqlarının zəngin mədəniyyəti bu məsələyə baxışda müxtəlif mövqelər nümayiş etdirirdi. Məsələn, Qazaxıstandan, Tatarıstandan gələn görkəmli ziyalılar təkidlə tələb edirdilər ki, latın əlifbası qəbul olunmamalıdır və sadəcə ərəb əlifbasının islahatı ilə kifayətlənmək lazımdır. Ona görə də onlar bir neçə illik təcrübə əsasında heç də islah olunuş variant hesab edilə bilməz. Belə ki, islah olunmamış əlifbaya keçməklə ərəb əlifbasında olan mətnlər oxunmayacaq və problemlər yaranacaq. Lakin islah olunmuş əlifbanın da qüsurları çox idi. İslah olunmuş əlifbada isə bu prinsipi nəzərdə tutmuşdular - əlifba sağdan sola yazılsın. Əlbəttə ki, bu da müəyyən problemlər törədirdi, xüsusilə, rəqəmlər soldan sağa yazılırdı, yazılar isə sağdan sola. Bundan başqa, fizikada, kimyada, riyaziyyatda olan bir sıra işarələr, ifadələr də problemlər yaradırdı. Məsələn, maddənin quruluşu olan "H2O" Avropa ənənəsi ilə soldan rəm".



özlərinin islah olunmuş əlifbalarını təqdim edirdilər. Məsələn, onların içərisində Qazaxıstandan Əhməd Baytursun oğlu, Tatarıstandan isə Qalimcan Şərəf adlı istedadlı dilçilər öz iddialarını irəli sürürdülər. Onlar latın əlifbasına qarşı mübarizədə kifayət qədər arqumentlər gətirirdilər. Çünki türk xalqları uzun əsrlər ərəb əlifbasından istifadə etmişdilər, fikirləşirdilər ki, o vaxta qədər olan ədəbiyyat oxunmayacaq və onlar türk xalqlarının mədəni irsi siyahısından texniki olaraq çıxacaqlar. Ancaq bu fikirlər təkzib olundu, ona görə ki, Azərbaycandan, Özbəkistandan, elə Tatarıstanın özündən də belə fikirlər səsləndi ki, islah olunmuş ərəb əlifbası sağa yazılırdı və texniki olaraq onu normal şəkildə təqdim etmək mümkün deyildi, bir sözlə, disharmoniya yaranırdı. Göründüyü kimi, bu cür müzakirələr aparılırdı, türk xalqlarının ziyalıları bir-biriləri ilə kəsin polemikalara girirdilər, amma yenə də bu, türk xalqlarına aid bir məsələ idi. Moskvadan böyük alimlər dəvət olunmuşdular, onlar da öz fikirlərini bildirirdilər. Rusiyalı alim Lev Vladimiroviç Şerba öz mülahizələrini söyləyəndə tez-tez deyirdi: "Ey türk xalqlarının ziyalıları, bu məsələlərin həll olunması sizə aiddir, siz problemi hansı prinsiplə həll edəcəksinizsə, gərək onları özünüz düşünəsiniz. Mən hansısa fikri sizə sadəcə bir rus alimi olaraq deyi-

Hər bir halda rusiyalı alimlər məsuliyyəti türk xalqları ziyalılarının öz üzərinə qoyurdular. Bütün bunlar da istər-istəməz türk xalqlarını birləşdirirdi, belə fikirlər təlqin edirdi ki, onlar bu qurultayda çox ciddi işlə məşğuldurlar".

N.Cəfərov qeyd edib ki, Birinci Türkoloji Qurultayın dərslərini bu gün də almalıyıq, sənədləri diqqətlə araşdırmalı, oxumalı, təhlil etməliyik: "Bilməliyik ki, 20-ci əsrin 20-ci illərində dədə-babalarımız türk xalqlarının tarixi barədə hansı fikirdə olublar, türk xalqlarının ədəbiyyatının təhlilini necə aparıblar, xüsusilə, tarixin hansı təsnifatlarını veriblər? Eyni zamanda, dilimizlə - həm əlifba, həm orfoqrafiya, həm də terminalogiya və ədəbi dillə bağlı hansı mövqedə olduqlarına nəzər yetirməliyik. Ziyalı dədə-babalarımızın ortaq ədəbi dil barəsində nə düşündükləri, onların bu ortaqlığı necə təsəvvür etdikləri, hansı dillərlə ünsiyyət saxlamağın mümkünlüyü barədə dediklərini də araşdırmalıyıq. Düzdür, sonralar həmin iddialar, maraqlar və təsəvvürlər sovet dövləti ruslaşdıqca, yəni çarizmin varisinə çevrildikcə aradan qaldırıldı, amma bütün bunlar dərslik olaraq qurultayın uzun müddət gizlədilmiş, üzə çıxarılmamış materiallarından öz əksini tapıb. Ona görə yenə də böyük məsuliyyətlə həmin məsələləri araşdırmalı, öyrənməli və tətbiq etməliyik.



Professor vurğulayıb ki, bütün türk dünyası olaraq latın əlifbasına keçirik, bu zaman qarşımıza ciddi problemlər çıxır: "Əvvəla, xalqların bəzilərinin, məsələn, qazaxların, qırğızların, tatarların, başqırdların yeni əlifbaya keçməsinə icazə vermirlər. Yəni, mövcud siyasi-ideoloji şərait imkan vermir ki, bu xalqlar lazımi rahatlıqla latın əlifbasına keçsinlər. İkincisi, latın əlifbasına keçən türk xalqları adətən eyni işarələri qəbul etsələr də, bəzən fərqli işarələri də qəbul edirlər. Əlbəttə ki, fərqli işarələrin qəbulu problem yaradır. Bunun üçün də əlifbanın uyğunlaşdırılması - unifikasiyası lazımdır. Yəni, elə olmalıdır ki, biz "ç", "ş" hərfini necə yazırıqsa, özbəklər də elə yazsın. Özbəklər isə bu hərfləri ingilislər kimi "ch", "sh" kimi yazılar. Bir sözlə, ortaq bir variant olmalıdır, "ç" və "ş" hərflərinin yazılmasının bizdə böyük təcrübəsi var, həmin təcrübəyə uyğunlaşmaq lazımdır. Qazaxlar deyirlər ki, onların dilində üç ədəd "u" səsi var. Amma müzakirələrin gedişində məlum olur ki, bütün türk dillərində olduğu kimi, əslində onlarda da cəmi bir ədəd "u" işarəsi var. Çünki, qazax dilində bir "ü" varsa, deməli, "u" işarəsi də bir ədəd olmalıdır. Bunu məntiq də belə tələb edir".

Birinci Türkoloji Qurultayda olduğu kimi, bu gün də təxminən eyni məsələlər üzərində dayandığımızı deyən N.Cəfərov qeyd edib ki, həmin məsələlərdən biri terminalogiyadır: "Milli terminlərimizi yaratmalıyıq, yoxsa beynəlxalq terminlərdən istifadə etməliyik, türk xalqları bir-birilərinə termin verə bilərmi? Bu mövzular günümüzdə də ciddi mübahisələrə səbəb olur. Ortaq olaraq hansı türkçəni istifadə etməliyik? Süni bir türkçə yaratmalıyıqmı? Bütün bunlar müzakirə olunur. Həmin müzakirələr də türk xalqlarını birləşdirir.

Etiraf edək ki, "birlik-birlik" deməklə birlik olmur, təbii ki, bu çağırış yaxşı bir haldır. Bir zamanlar İsmayıl bəy Qaspıralı da "Dildə, fikirdə, işdə birlik" demişdi. Yenə də bu şüuarla yaşayırıq və onun təsiri altındayıq. Amma eyni zamanda bu birliyi təmin edən elementlər, ünsürlər, amillər olmalıdır, onlardan biri də Birinci Türkoloji Qurultayın bizə yadigar qoyduğu məsələlərdir. Bu məsələləri müzakirə edib axıra çatdırmalıyıq. Nəzərə alaq ki, aradan 100 il keçib və 100 il ərzində türk xalqlarının elmi, mədəniyyəti, intellekti inkişaf edib. Əgər o zamanlar xalqın üç-beş ziyalısı var idisə, bu gün xalqın böyük faizi ziyalılardan ibarətdir".

Professorun fikrincə, türk xalqlarının tarixi onların bir-birindən ayrılması, bölünməsi, differensiyasiyası tarixidir: "Xalqlar o zaman yaşayır ki, onlar müəyyən etnik qruplara bölünürlər. Lakin siyasi və mədəni məzmunlu inteqrasiya prosesləri də mümkündür və bu proseslər gedir. Prezident İlham Əliyev Qəbələdə keçirilmiş sammitdə türk ailəsi barədə çox qiymətli fikirlər söyləmişdi. Bu fikirlər bütün türk dünyasına yayıldı. Eyni ailənin üzvlərinin - türk dünyası ailəsinin birliyi, inteqrasiyası qaçınılmazdır, bu, təbii ehtiyacımızdır. Cənab Prezident həm də demişdi ki, etnik birliyimiz, ortaq mənəvi-mədəni irsimiz də inteqrasiya üçün əsasdır. Ona dayanaraq bu inteqrasiyanı aparmaq lazımdır. Bu baxımdan hər birimiz əminik ki, Birinci Türkoloji Qurultayın 100 illik təntənələri keçirildikcə, bu, inteqrasiyamıza da dərin təsirlərini göstərəcək!".

***Yeganə BAYRAMOVA***

# TDT nazirlərinin 2-ci iclasının Bəyannaməsi qəbul edilib

İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə bu gün Bakıda keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) Sənaye, Elm, Texnologiya və İnnovasiya Nazirlərinin 2-ci iclasının yekunlarına dair Bəyannamə qəbul edilib.

İclasda özəl sektorun iqtisadi əməkdaşlıq formatlarına daha fəal cəlb olunmasının vacibliyi qeyd olunub.

Bildirilib ki, biznes strukturları ideyaların, texnologiyaların və investisiyaların mənbəyi kimi iqtisadi əməkdaşlığın əsas hərəkətverici qüvvəsinə çevrilməlidirlər. İstehsal müəssisələri, tədqiqat mərkəzləri və startap ekosistemləri bir araya gələrək regionda sənayenin dayanıqlı inkişafını və innovativ artımın əsasını gücləndirə bilər. Bu məqsədlə üzv ölkələrdə fəaliyyət göstərən iri sənaye şirkətlərinin iştirakı ilə texnologiya platformasının qurulması təklif olunub.




Şimal və Cənub, Şərq və Qərb arasında strateji coğrafi mövqeyə malik TDT ölkələrinin bu üstün potensialdan və Orta Dəhlizin artan imkanlarından səmərəli faydalanmasının vacibliyi diqqətə çatdırılıb.

İclasda işçi qrupunun 1 illik fəaliyyəti barədə məlumat verilib. Üzv ölkələr arasında tanışlıq və təcrübə mübadiləsi prosesinin uğurla həyata keçirildiyi qeyd edilib, irəli sürülən təşəbbüslərin önəmi diqqətə çatdırılıb.

TDT-nin Sənaye, Elm, Texnologiya və İnnovasiya Nazirlərinin 3-cü İclasının növbəti il Qazaxıstanda keçirilməsi qərara alınıb.

# Süni intellektə əsaslanan sosial xidmətlər

## "SOCGOV 2025: Süni intellekt insan və transformasiya üçün" mövzusunda keçirilən beynəlxalq konfransda sosial sahədə inkişaf yolları müzakirə olunub

Oktyabrın 24-də Bakıda "SOCGOV 2025: Süni intellekt insan və transformasiya üçün" mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbirdə Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan, Serbiya, Rumıniya, Moldova, Belarus, Xorvatiya, Norveç və Portuqaliyanın mühüm dövlət qurumlarının əməkdaşları, nüfuzlu mütəxəssislər iştirak ediblər. Ümumilikdə, dünyanın 20-yə yaxın ölkəsindən 350 nəfərin qatıldığı tədbirdə insan inkişafı və vətəndaşların sosial müdafiəsinin təmin edilməsində həyata keçirilən islahatlar, bu sahədə tətbiq edilən innovativ alətlərin əhəmiyyəti barədə geniş fikir mübadiləsi aparılıb. İştirakçılar müasir rəqəmsal dövlət quruculuğu mühitində süni intellektə transformasiya, sosial xidmətlərdə süni intellektin tətbiqi imkanları, sosial inklüzivlik, bacarıqların inkişafı və rəqəmsal sahibkarlıq mövzularında da faydalı məsələləri müzakirə ediblər.

### Son 7 ildə orta aylıq əməkhaqqı 2, orta aylıq pensiya 2,6 dəfə artıb

Konfrasda çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev bildirib ki, Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mərkəzində insan amili durur. Bu ali sosial hədəflərin reallaşması üçün dövlət başçısı tərəfindən davamlı olaraq islahat paketləri icra olunur. Bu siyasət tədbirləri çərçivəsində 2018-2025-ci illər ərzində 5 böyük sosial islahat paketi icra olunub və 4 milyon vətəndaşı əhatə etməklə büdcədən əlavə 7 milyard 600 milyon manat vəsait ayrılıb.

A.Əliyev bildirib ki, qeyd olunan dövrdə minimum əməkhaqqı 3,1 dəfə, minimum pensiya 2,9 dəfə, orta aylıq əməkhaqqı 2 dəfə, orta aylıq pensiya 2,6 dəfə artıb. Dövlət sosial müavinət və təqaüd ödənişləri 5 dəfə artaraq 1,9 milyard manata yüksəlib. Ünvanlı sosial yardımın orta məbləği 2,5 dəfə, yaşayış minimumu 65 faiz, ehtiyac meyarı isə 2,2 dəfə artırılıb. Ötən müddət ərzində əmək müqavilələrinin sayı isə 41 faiz artaraq 1 milyon 851 minə çatıb. Ölkə üzrə əməkhaqqı fondu isə 3,2 dəfə artıb. Bunun da böyük hissəsi özəl sektorun payına düşüb.




Həmin göstəricilər ölkəmizin sosial sahədə həm miqyas, həm də keyfiyyət baxımından əhəmiyyətli nailiyyətlərini nümayiş etdirir. Onu da qeyd etmək lazımdır ki, postmüharibə dövründə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi diqqət mərkəzində olub, 132 min unikal şəxsə 400 mindən çox xidmət göstərilib. Bu kateqoriyadan olan şəxslər üçün nəzərdə tutulan müavinət və təqaüdlər orta hesabla 2 dəfədən çox artırılıb. Bu dövr ərzində şəhid ailələri, müharibə əlilləri və həssas təbəqədən olan digər şəxslərə 6 min 800 mənzil verilib, 28 min nəfər məşğulluq tədbirlərinə cəlb edilib.

### Süni intellekt sosial məsələlərdə yeni imkanlar yaradır

Əmək və əhalinin sosial müdafiəsi naziri sosial dövlət quruculuğunda rəqəmsal həllərin imkanlarından bəhs edərək vurğulayıb ki, süni intellektə transformasiya nəticəsində sosial xidmətlərdə yeni tətbiqlər gerçəkləşməkdədir. Süni intellekt bazasına əsaslanmaqla, sosial xidmətlərin bir neçə sahəsi innovativ alətlərə inteqrasiya edilib. Belə ki, əlillik altsistemində süni intellekt əsaslı funksionallıq hazırlanaraq istifadəyə verilib. Bu funsionallıq əsasında tibbi göndərişlərdə mətn analizi həyata keçirilir, şəxsi məlumatlar və sui-istifadələrə səbəb ola bilən həssas məlumatlar avtomatik aşkar edilərək tənzimlənir. Eyni zamanda, gələcək üçün əlillik altsistemində süni intellekt əsaslı məsləhət mexanizmi də hazırlanır. Bu mexanizm nəticəsində həm qərarvermə prosesi sürətlənəcək, həm də obyektivlik və şəffaflıq səviyyəsi daha da artacaq. Süni intellekt həllərinin, həmçinin məşğulluq sahəsində fərdi məşğulluq proqramlarının hazırlanmasında, reabilitasiya sahəsində isə fərdi reabilitasiya və abilitasiya proqramlarının hazırlanmasında tətbiqi nəzərdə tutulur.







### Süni intellekt əsaslı 'biznes bələdçisi" yaradılacaq

Sosial müdafiə sahəsində dayanıqlı resusrs bazasının formalaşmasında biznesin aktivliyi də mühüm əhəmiyyət kəsb edir. Biznes sektoru sosial yığımlarda əsas tərəfdaş kimi sosial sahənin inkişafını təşviq edir. Hazırda ölkədə muzdlu işçi qüvvəsinin 44 faizi KOB sektorunda çalışır. Bu baxımdan sosial sahədə rəqəmsal texnologiyaların tətbiqində sahibkarların üzərinə də ciddi vəzifələr düşür. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov hesab edir ki, məhz bu çağırışlar nəzərə alınaraq KOB sektorunda daha effektiv strateji qərarların qəbulu üçün süni intellektə əsaslanan biznes analitikası sisteminin yaradılması planlaşdırılır. KOBİA süni intellekt sahəsindəki qlobal trendlərdən kənarda qalmağından süni intellektə əsaslanan həllərin biznes proseslərinə və KOB-lara yönəlmiş xidmət alətlərinə inteqrasiyasını daim diqqətdə saxlayır. Bu məqsədlə e-KOB evi portalı layihəsi çərçivəsində işlər aparılır. Portalda rəqəmsal mühitdə süni intellekt üzərindən 'biznes bələdçisi" alətinin yaradılması nəzərdə tutulur. Yaxın gələcəkdə, həmçinin, KOB sektorunda qiymətləndirmə və strateji qərarların qəbuluna dəstək üçün süni intellektə əsas biznes analitikası sisteminin inkişafı istiqamətində addımlar atılacaq.

KOBİA-nın digər hədəfi süni intellekt texnologiyalarının KOB sektorunda tətbiqinin təşviqidir ki, bu istiqamətdə həm mövcud dəstək mexanizmləri, həm də tərəfdaş qurumlarla birgə layihələr çərçivəsində tədbirlər həyata keçirilir. KOB-lar cəmiyyətin süni intellekt texnologiyalarına hazırlıq səviyyəsini və bu sahədə bacarıqlarını artırmaq potensialına malikdir.

### Rəqəmsal transformasiyayada Türkiyə-Azərbaycan modeli

Türkiyənin əmək və sosial müdafiə nazirinin müavini Ahmet Aydın müasir dövrdə rəqəmsal dövlət quruculuğunun sosial idarəetmədə əsas vasitəlıərdən birini çevrildiyini və öz ölkəsi tərəfindən çoxistiqamətli islahatlar həyata keçirildiyini bildirib. Onun sözlərinə görə, rəqəmsal transformasiya yalnız xidmətlərin təqdimatını deyil, eyni zamanda qərar qəbuletmə proseslərini də köklü şəkildə dəyişir. Xüsusilə, əmək həyatında süni intellekt dəstəklı sistemlərin tətbiqi dövlət idarəçiliyində səmərəliliyi artırmaqla yanaşı, işçilərin hüquqlarının daha etibarlı qorunmasına imkan yaradır. Bu baxımdan Türkiyə süni intellekti rəqəmsal dövlət infrastrukturumuza inteqrasiya etməklə sosial siyasətlərdə daha çevik, inklüziv və effektiv həllər formalaşdırmağı hədəfləyir.

A.Aydın qeyd edib ki, qarşıdakı dövrdə rəqəmsal dövlətlərin yalnız texnoloji deyil, eyni zamanda, insani, iştirakçı və sosial yönü güclü strukturlar kimi yüksələcəyini nəzərə alaraq Türkiyə region ölkələri ilə sıx işbirliyi və geniş işlək platforma qurmağı hədəfləyir. Bu platformada sözsüz ki, Azərbaycan ilk pillədə dayanır, qardaş ölkə sosial rəqəmsallaşmada Azərbaycanla birlikdə yeni uğurlara imza atacağına inandığını ifadə edib.

### Süni intellekt həm iş yerlərini bağlayacaq, həm də bacarıqlara əsaslanan iş yerləri yaradacaq

"SOCGOV 2025" konfransında çıxış edən Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev isə bildirib ki, müasir texnologiyaların yaratdığı yeni çağırışlar islahatların daha da təkmilləşdirilməsini zəruri edir. Bu şərçivəyə əsaslanan "ASAN xidmət" dain innovasiyalara inteqrasiyanı artırır, eyni zamanda, qabaqcıl ölkələrlə birgə təcrübələri bölüşür.

Ü.Mehdiyevin fikrincə, süni intellektli texnologiyaların və "yaşıl keçid"ə transformasiya əmək və məşğulluq üçün də əhəmiyyətli faktorlardan biri kimi çıxış edir. Süni həllər nəticəsində yaranacaq iş yerləri, eyni zamanda, iş anlayışının strukturuna, arxitekturasına ciddi təsir göstərəcək. Son illər müxtəlif beyin araşdırma mərkəzləri, elmi institutlar, beynəlxalq araşdırma mərkəzləri də bu sahədə ciddi araşdırmalar aparırlar və çox ciddi hesabatlar hazırlayırlar. Məsələn, Dünya İqtisadi Forumunun 2025-ci il üzrə süni intellekt sahəsində araşdırma hesabatında qeyd olunub ki, süni intellektli texnologiyaların və "yaşıl keçid" transformasiyasının nəticəsində dünyada 90 milyondan çox iş yeri bağlanacaq, amma onun əvəzində 170 milyona yaxın yeni iş yerləri formalaşdırılacaq. Ancaq bununla yanaşı, ləğv olunan iş yerlərinə münasibətdə yeni iş yerləri, yeni bacarıqlar, yeni biliklər tələb edəcək. Bu istiqamətdə artıq istər beynəlxalq şirkətlər, təşkilatlar, istərsə də dövlətlər vətəndaşlarını hazırlamaq üçün ciddi tədbirlər həyata keçirirlər. Azərbaycan da bu istiqamətdə geridə qalmır.

Konfransda çıxış edən digər natiqlər də vurğualyıblar ki, idarəetmədə və digər sahələrdə əsas vasitəyə çevrilən süni intellekt texnologiyaları qarşıya qoyulan hədəflərə, vəzifələrə çatmağa, vətəndaşların rifahına və inkişafına nail olmağa imkan yaradır.

Beləliklə, "SOCGOV 2025: Süni intellekt insan və transformasiya üçün" mövzusunda keçirilən beynəlxalq konfrans yerli və beynəlxalq ekspertləri bir araya gətirməklə sosial xidmətlər sahəsində sürətli inkişaf perspektivlərinin qiymətləndirilməsi, innovativ yanaşmaların, süni intellekt alətlərinin və müasir texnologiyaların tətbiq edilməsi ilə gələcək inkişaf yollarının müəyyənləşdirilməsi baxımından yeni nümunəvi platforma rolunu oynayacaq.

*ELBRUS CƏFƏRLİ*

# Y.Sviridenko: Ölkəyə əlavə qaz idxal etmək üçün 2 milyard avro vəsait lazımdır



Əlavə qaz idxalı üçün maliyyələşdirmə təxminən 2 milyard avrodur, Ukrayna bunu daxili ehtiyatlardan və tərəfdaşlarının köməyi ilə əldə edəcək.

AZƏRTAC-ın məlumatına görə, Baş nazir Yuliya Sviridenko bunu "hökumətə sual saatı" zamanı açıqlayıb.

"Əlavə qaz idxalı üçün tələb olunan maliyyələşdirmə təxminən 2 milyard avrodur. Bu, iki yolla ödəniləcək: daxili ehtiyatlar və tərəfdaşların xarici yardımı. Daxili ehtiyat dünən vəsait ayırdığımız ehtiyat fonduna aiddir. Buraya Ukraynanın bank sektoru və "Naftogaz" əməliyyatları üçün maliyyələşdirmə də daxildir. İkinci komponent tərəfdaşlarımızın qrant və kreditlər vasitəsilə köməyidir. Buraya Avropa Yenidənqurma və İnkişaf Bankı və Avropa İnvestisiya Bankı ilə əməkdaşlıq daxildir. Norveç də bizə 150 milyon avro qrant verir", - deyə o bildirib.

Y. Sviridenko bildirib ki, bu gün Almaniyanın energetika naziri ilə görüş keçirilib və müvafiq fond üçün əlavə 60 milyon avro ayrılacağı elan edilib. Bu vəsait də qaz idxalına sərf olunacaq.

Baş nazir xatırladıb ki, Ukrayna anbarlarda 13,2 milyard kubmetr qaz toplamağı planlaşdırır. O bildirib ki, bu məqsədə nail olunub, lakin Rusiyanın qaz infrastrukturuna hücumları səbəbindən Ukrayna əlavə qaz idxalı həcmi ilə bağlı məsələni təcili olaraq həll etməlidir.

Bundan əvvəl, oktyabrın 23-də Ukrayna Nazirlər Kabineti 2025-2026-cı il istilik mövsümündə qazın sabit axınını təmin etmək üçün dövlət büdcəsinin ehtiyat fondundan 8,4 milyard qrivna ayırmaq qərarına gəlib.

# Si Cinpin Cənubi Koreyaya dövlət səfəri edəcək

Çin Xalq Respublikasının Sədri Si Cinpin oktyabrın 30-dan noyabrın 1-dək Cənubi Koreyada dövlət səfərində olacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Çinin Xarici İşlər Nazirliyi açıqlama yayıb.

Çin Lideri Cənubi Koreya Prezidenti Li Cemyönin dəvəti ilə baş tutacaq səfər çərçivəsində Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı (APEC) ölkələri liderlərinin 31 oktyabr - 1 noyabr tarixlərində Kyoncu şəhərində keçiriləcək sammitində də iştirak edəcək.



Qeyd edək ki, Ağ Ev ABŞ Prezidenti Donald Trampın APEC sammiti çərçivəsində oktyabrın 30-da Çin Lideri ilə görüşəcəyi barədə məlumat yayıb.

# Avropada ikili müdafiə tədbirləri

## Qərb ilə Şərq fərqli “təhlükəsizlik masalarında”...

4 ilə yaxındır ki, davam edən Rusiya-Ukrayna müharibəsi Avropanın işini bir neçə istiqamətdə “çətinləşdirib”. Enerji, xammal idxalı kimi iqtisadi tendensiyalarla yanaşı, münaqişə təhlükəsizlik arxitekturasını da zədələyib. Qərb özünün təhlükəsizliyini qorumaq üçün illərdir ki, ciddi addımlar atır.

Amma təhlükəsizlik tədbirlərinin görülməsi məsələsində də bəzi ziddiyyətlər meydana çıxır - vurğulanmalıdır ki, son dövrlər bir çox məsələlərlə bağlı hətta siyasi və strateji səviyyədə Avropa məkanında ciddi fikir ayrılıqları müşahidə olunur. Bu fərqliliklər təkcə iqtisadi və enerji məsələlərində deyil, həm də təhlükəsizlik və müdafiə istiqamətində özünü qabarıq şəkildə göstərir. Qeyd edildiyi kimi, müharibənin uzanması, NATO daxilində məsuliyyət bölgüsü ilə bağlı anlaşılmazlıqlar və ABŞ-ın Avropa ilə hərbi müttəfiqliyinin müzakirə predmetlərinin dəyişməsi istiqamətində artan çağırışlar qitədə yeni proseslərə yol açıb. Paralel olaraq, Qərbi Avropa dövlətləri - xüsusilə Fransa və Almaniya müstəqil müdafiə arxitekturasının formalaşdırılması ideyasını irəli sürürlər. Digər tərəfdən isə Şərqi Avropa ölkələri NATO-nun hərbi təminatlarını öz təhlükəsizliyinin əsas dayağı hesab edir və ABŞ-la hərbi əməkdaşlığın dərinləşdirilməsində maraqlıdırlar. Bu situasiya Avropa İttifaqı daxilində vahid müdafiə konsepsiyasının yaranmasını çətinləşdirir.

### “Müstəqil müdafiə” təklifi - Avropa Ordusu yalnız Qərbi qoruyacaqmı?

Qeyd edildiyi kimi, son illər Fransa prezidenti Emmanuel Makronun dəfələrlə səsləndirdiyi “Avropa ordusu” ideyası, əslində, Qərbi Avropanın NATO-dan asılılığını azaltmaq cəhdi kimi izah olunur. Paris və Berlin uzun müddətdir ki, ABŞ-dan asılı olmayan müdafiə sisteminin yaradılmasının tərəfdarı kimi çıxış edir. Lakin bu ideya Şərqi Avropa ölkələri tərəfindən soyuq qarşılanır. Polşa, Baltikyanı ölkələr və Rumıniya kimi dövlətlər Rusiyanın təhdidini real təhlükə kimi görür və ABŞ-ın qitədəki hərbi mövcudluğunu zəiflədə biləcək istənilən təşəbbüsə ehtiyatla yanaşırlar. Səbəb isə odur ki, Rusiya-Ukrayna müharibəsi Şərqi Avropa üçün yeni təhlükəsizlik reallıqları formalaşdırıb. Müharibənin bu regionda aparılması birbaşa təhdid hissini gücləndirib. Buna görə də Şərqi Avropa ölkələri öz müdafiə potensiallarını artırmaq, ordularını modernləşdirmək və birgə hərbi koordinasiyanı gücləndirmək istiqamətində addımlar atırlar. Finlandiya və İsveçin NATO-ya üzvlüyü, Polşanın silahlanmaya rekord büdcə ayırması və Baltikyanı ölkələrin ABŞ ilə hərbi sazişlərini yeniləməsi bu istiqamətdə konkret addımlardır. Region artıq “müdafiə immunitetini” artırmaqla məşğuldur və bu prosesin uzunmüddətli olması gözlənilir.



### Şərqi Avropa bir masa arxasında...

Yeri gəlmişkən, dekabrın 16-da Finlandiyada Şərqi Avropa ölkələrinin müdafiə sahəsində əməkdaşlıqlarının müzakirə olunacağı yüksəksəviyyəli sammit keçiriləcək. “Yle” portalının məlumatına görə, Finlandiyanın Baş naziri Petteri Orpo bu barədə Avropa İttifaqının Brüsseldə keçirilən sammitindən sonra deyib. Onun sözlərinə görə, Finlandiyada keçiriləcək görüşdə Baltikyanı ölkələr, Polşa, Rumıniya və Bolqarıstan təmsil olunacaq. “Görüşdə ittifaqın şərq sərhədində yerləşən ölkələrin müdafiəsinin gücləndirilməsi üçün konkret əməkdaşlıq mexanizmlərinin formalaşdırılması, həmçinin Avropanın növbəti çoxillik maliyyə proqramı çərçivəsində bu ölkələr üçün maliyyələşmənin hansı yolla təmin ediləcəyi məsələləri müzakirə olunacaq”, - deyə o bildirib.

Əslində, Avropanın şərq sərhədlərinin möhkəmlənməsi ilə bağlı müzakirələr artıq bir neçə aydır ki, aktualdır. Hələ sentyabrın əvvəlində NATO Rusiyanın Polşa hava məkanını pozmasından sonra alyansın şərq cinahında gücləndirilmiş mövcudluğunu elan etmişdi. NATO-nun Ali Müttəfiq Qüvvələrinin Komandanlığının göstərişi ilə “Şərq Gözətçisi” Əməliyyatına start verilmişdi. Hətta Qərbi Avropa ölkələrinin bəziləri də bu əməliyyata dəstək verəcəklərini açıqlamışdılar. Polşa, müttəfiqlərin mövcud təhlükəsizlik vəziyyətini və təhdidlərə qarşı birgə tədbirləri müzakirə etməsini təmin edən NATO Nizamnaməsinin 4-cü maddəsinə əsasən məsləhətləşmələr başlatmışdı.

Finlandiyada keçiriləcək yüksək səviyyəli sammitin əsas məqsədi də Şərqi Avropa ölkələrinin müdafiə sahəsində əməkdaşlıq mexanizmlərini müzakirə etmək olacaq. Pronozlaşdırılır ki, sammitin gündəliyinə kollektiv müdafiə planlaşdırması, texnoloji mübadilə, hərbi sənaye tərəfdaşlığı və NATO ilə koordinasiya kimi məsələləri daxildir. Tədbirə Finlandiyanın ev sahibliyi etməsi təsadüfi deyil - ölkə həm Rusiya ilə sərhəddə yerləşir, həm də NATO-nun yeni üzvü kimi regionda təhlükəsizlik müzakirələrinin mərkəzinə çevrilib. Bir çox siyasi-hərbi ekspertlər iddia edirlər ki, sammitin nəticələri Avropa təhlükəsizlik arxitekturasının gələcək istiqamətlərinə ciddi təsir göstərəcək.

Qeyd edək ki, bu proseslər Avropada iki fərqli təhlükəsizlik yanaşmasının meydana gəldiyini göstərir. Qərbi Avropa ABŞ-dan nisbətən müstəqil, Avropa mərkəzli müdafiə sistemi qurmaq istəyir - Şərqi Avropa isə NATO-nun təminatlarını və Vaşinqtonun hərbi iştirakını qorumaqda qərarlıdır. Bu ziddiyyətlərin gələcəkdə Avropa İttifaqı daxilində yeni siyasi balans yaratması və qitədə müdafiə konsepsiyalarının yenidən tərtib olunmasına səbəb olması mümkündür.

### Mina təhdidi artır...

Xatırladaq ki, bu ilin yayında beş şərqi Avropa ölkəsi Rusiya və Belarusla sərhəd boyunca mina kəməri yaratmağı planlaşdırdığını bəyan etmişdi. Finlandiya, Estoniya, Latviya, Litva və Polşa onsuz da sərhədlərini möhkəmləndirmək üçün baryer sistemləri və video nəzarət yaradıblar - onlar həm də, başqa bir qoruma təbəqəsinə, piyada əleyhinə minalara ehtiyac olduğunu bildirmişdi. Qeyd edək ki, son bir ildə Şərqi avropa kontingentinə daxil olan bu beş NATO ölkəsi bir-birinin ardınca 1997-ci ildə imzalanmış və iki il sonra qüvvəyə minmiş piyada əleyhinə minaların istifadəsini qadağan edən Ottava Konvensiyasından çıxdıqlarını elan etmişdilər. Qeyd edək ki, Rusiya ilə quru sərhədlərini bölüşən altı NATO ölkəsindən yalnız təxminən 200 kilometrlik sərhədə malik Norveç Ottava Konvensiyasının üzvü kimi qalmaq niyyətində olduğunu bildirmişdi. Sazişdən çıxan beş ölkə isə bu ilin sonuna qədər piyada əleyhinə minaların istehsalını və saxlanmasını, zəruri hallarda sürətli və geniş istifadəsini reallaşdıra biləcək.

**P.İSMAYILOV**

# ABŞ-dan Ottavaya ittiham...

## Reyqandan “istifadə” edərək saxta reklam çarxı...

ABŞ ilə Kanada arasında yenidən qalmaqal baş verib. Belə ki, ABŞ Prezidenti Donald Tramp Kanada ilə bütün ticarət danışıqlarının dayandırıldığını açıqlayıb. O, bu barədə “Truth” sosial şəbəkəsində yazıb. Dövlət başçısı bu addımın Kanadada ABŞ-ın keçmiş prezidenti Ronald Reyqanın rüsumlarla bağlı mənfi danışdığını göstərən saxta reklam çarxı ilə bağlı atıldığını deyib. “Ronald Reyqan Fondu Kanadanın saxta şəkildə Ronald Reyqanın tariflər haqqında mənfi danışdığını göstərən reklam çarxı yayımladığını açıqlayıb. Reklamın dəyəri 75 min dollar təşkil edib. Onlar bunu yalnız ABŞ Ali Məhkəməsinin və digər məhkəmələrin qərarına müdaxilə etmək üçün etdilər. Tariflər ABŞ-ın milli təhlükəsizliyi və iqtisadiyyatı üçün çox vacibdir. Onların bu davranışlarına əsasən, Kanada ilə bütün ticarət danışıqları dayandırılır”,- deyə Tramp vurğulayıb.

### Reyqan nə deyib?

Qeyd edək ki, adıçəkilən reklamda Reyqanın 1987-ci ildə tariflər haqqında çıxışının səs yazısından istifadə olunub və Reyqan bu çıxışlarda tariflərin uzunmüddətli perspektivdə təsirsiz olduğunu deyib. Xatırladaq ki, Reyqan 2004-cü ilin yayında 92 yaşında vəfat etdi. O, 1981 - 1989-cu illərdə ABŞ prezidenti olub.

ABŞ-ın hazırkı Prezidenti Tramp isə bu ilin yayında Kanada üçün tarifləri 25 faizdən 35 faizə qaldırıb. O, bunu fentanil dərmanının qaçaqmalçılığı və Ottavanın cavab tədbirləri ilə əlaqələndirib. Qərar ABŞ-Meksika-Kanada Azad Ticarət Sazişi ilə əhatə olunan mallara təsir etməyib. Bu ilin iyununda isə Tramp Kanadanın “Amazon”, “Google”, “Uber” və “Airbnb” kimi Amerika texnologiya şirkətlərinə yeni xidmət vergisi tətbiq etməsi səbəbindən Kanada ilə tarif danışıqlarını dayandırmışdı. Onlardan mənfəətdən üç faiz dərəcəsi ilə vergi tutulmalı idi. Lakin sonda bu, ləğv edildi.

### Kanada gələcək 10 illik planını açıqladı

Kanada Baş naziri Mark Karni isə bildirib ki, ölkənin ABŞ-dan iqtisadi asılılığını azaltmaq üçün növbəti on ildə ABŞ-dan kənar bazarlara ixracını ikiqat artıracaq. Hökumətin gələn ayın federal büdcəsi üçün prioritetlərini açıqlayan Karni deyib ki, ABŞ ilə ticarət əlaqələrinin təbiəti dəyişir. Onun sözlərinə görə, hökumət “daha dinamik, daha rəqabətli və daha düşməncəsinə” şəraitdə “daha güclü iqtisadiyyat qurmağa” hazırlaşır: “Əgər indi hərəkətə keçməsək, təzyiq artacaq. İqtisadiyyatımızı asanlıqla və ya bir neçə ay ərzində dəyişdirə bilmərik. Bu, çətinliklə yaradacaq və vaxt aparacaq.”

Bəlli olduğu kimi, bu ilin əvvəlindən bəri Kanada və ABŞ dəfələrlə tariflər üzərində toqquşublar. Karni hələ mart ayında Kanada ilə ABŞ arasında iqtisadi inteqrasiyanın dərinləşməsinə əsaslanan ənənəvi münasibətlərin “bitdiyini” və Kanadanın iqtisadiyyatını kökündən yenidən qurmalı olduğunu bəyan etmişdi.

Sentyabr ayında Karni hökuməti milli iqtisadiyyatı inkişaf etdirməyə və ABŞ-dan asılılığı azaltmağa yönəlmiş enerji, mədənçilik və liman genişləndirilməsini əhatə edən genişmiqyaslı infrastruktur planını elan edib.



### Ən yaxın iqtisadi tərəfdaş, yoxsa 51-ci ştat...

ABŞ hazırda Kanadanın ən vacib ticarət tərəfdaşıdır və Kanada mal ixracatının təxminən dörddə üçü ABŞ-a gedir. Hətta 2023-cü ilin sonuna olan statistik məlumata görə, Amerikanın bu ölkəyə ixracının həcmi Meksikaya (323 milyard ABŞ dolları) və Çinə (148 milyard ABŞ dolları) çatdırılma həcmini üstələyərək 353 milyard dollara (17,5 faiz) çatıb. Eyni zamanda, Kanadadan idxalın həcmi 2023-cü ilin sonunda 3-cü yeri tutaraq 421 milyard ABŞ dolları (13,7 faiz) təşkil edərək Meksikadan (476 milyard ABŞ dolları) və Çindən (427 milyard ABŞ dolları) sonra üçüncü yerdə olub. Ümumiyyətlə, son onillikdə ABŞ-ın Kanada ilə xarici ticarət dövriyyəsi artan dinamika ilə müşahidə edili

2024-cü ildə isə ABŞ və Kanada arasında ticarət dövriyyəsi təxminən 764,5 milyard dollar və ya gündə təxminən 3,6 milyard dollar təşkil edib. ABŞ-ın Kanadadan idxalı 411,9 milyard dollar olub. ABŞ-ın Kanada ilə ticarət kəsiri 62 milyard dollara düşüb.

İki ölkə arasında baş verənlərdə siyasi motivlər də mövcuddur - ABŞ prezidenti Donald Tramp ötən ilin sonunda etibarən israrla Kanadanı ölkəsinin 51-ci ştatı etmək niyyətini açıqlayıb - hələ ötən ilin sonunda Tramp Milad təbrikində qubernator adlandırdığı Kanadanın baş naziri Castin Trüdoya zəng edərək bildirmişdi ki, Kanada əraziləri ABŞ-ın 51-ci ştatı olarsa, kanadalılar üçün vergilər 60 faizdən çox azalacaq. Görünən isə budur ki, Ağ evin sahibi özünün “şimal planı”nı həyata keçirmək üçün addımlar atmağa başlayıb.

**SADİQ**

# Barını çürüdən ağac

## Onore de Balzakın “Yevgeniya Qrande” romanı haqqında

Ölkədə, bölgədə, dünyada baş verənləri izlədikcə istər-istəməz belə bir qədim sualla qarşılaşırsan: sənətkar öz yaradıcılığında bütün bunlara mütləq reaksiya göstərməli, qiymət verməlidirmi? Cəmiyyətin maraq dairəsinə düşən tiplərin obrazlarını yaratmalıdırmı? İçində yaşadığı, hələ bitməmiş dövrə, gərdiş eləməkdə olan dövrana münasibətini bildirməlidirmi? Söhbət, əlbəttə, bədii münasibətdən gedir, vətəndaş münasibəti bu məsələdə müzakirə mövzusu deyil.

Balzakın yaşadığı, yazıb-yaratdığı illər - XIX əsrin birinci yarısı böyük müharibələrin, üsyanların, inqilabların, ictimai-siyasi çalxantıların aramsız baş verdiyi zamanlar idi. O zaman dünya yenidən qurulurdu, monarxiya estafeti respublikaya, feodalizm kapitalizmə, aristokratiya burjuaziyaya verməyə başlamışdı, sənətin klassik kanonları modern qəliblərlə əvəzlənirdi. Bir sözlə, köhnəliklə yenilik hələ iç-içəydi, bir-birindən tamam ayrılmamışdı (yeri gəlmişkən, proses bu gün də tam başa çatmayıb). Bir yanda sərkərdələr, qəhrəmanlar, siyasətbaz şarlatanlar meydan sulayır, o biri yanda alimlər, filosoflar, sənətkarlar yeni ixtiralar ortaya qoyur, yeni ideyalara can verirdilər. Quruluşlar, bayraqlar, gerblər dəyişirdi, silahlar, texnologiyalar, qiyafələr təkmilləşirdi, insan xisləti isə dəyişməz qalırdı. Dünən övladlarından yarımayan binəsib kral - insan çobanı bu gün dünya səhnəsinə bədvaris fabrikant, həm mənəvi, həm də maddi iflasa uğramış tacir kimi çıxırdı. Qiyafələr, donlar təzə, ölü cəmdəkləri hərəkətə gətirən, vücudları yerindən oynadan mexanizmlər köhnəydi.

Balzak üçün bütün bu baş verənlər münbit ədəbi zəmin, mükəmməl dekorasiya, al-əlvan fon funksiyasını yerinə yetirirdi. Onun əsərlərində oxucu yazıçının sağlığında, ondan əvvəl baş vermiş hadisələrin əks-sədasını eşidir, bəzən ictimai-siyasi proseslərin episentrinə də düşür, bununla belə bu əsərlərə dövrün xronikası kimi baxmaq olmaz. Hərçənd Balzakın yaradıcılığı dövrünün mənzərəsini istənilən xronikadan, tarixi salnamədən daha yaxşı göstərir, çünki onun əsərlərində real insan obrazları, gerçək insan xislətləri təsvir olunub, xronikalarda, salnamələrdə isə hadisələr əsasən üzdən izlənir, bu hadisələri, sosial kataklizmləri törədən gizli, daxili səbəblərə, yəni insan psixologiyasına işıq tutulmur. Sosial ədəbiyyatı da o qismə aid eləmək olar, bu tip ədəbiyyat da insan talelərini sosial münasibətlər kontekstində gözdən keçirir. Yəni tutalım, savaşlar, ictimai ədalətsizlik, yaxud repressiyalar insan talelərini necə sındırır, fərdləri, ailələri, xalqları bədbəxtliyə necə sürükləyir, adət-ənənə yeniliyə necə müqavimət göstərir, var-dövlət, ya da yoxsulluq hansı fəsadlar verir, dini-milli çəpərlər xoşbəxtliyə necə əngəl törədir...

***

Fəqət bütün bu faciələrin arxasında insan psixologiyası, insan təbiəti durur - “Bəşəri komediya”ya yazdığı girişdə Balzak bəşər cəmiyyətini heyvanlar aləminə bənzədir, təbiətlə cəmiyyət arasında analogiya aparır. Onun fikrincə, insan ayrılıqda nə yaxşı, nə də pisdir, fərd dünyaya öz instinktləri, meyilləriylə gəlir. Cəmiyyət, maarifçilərin dediyi kimi, onu pozmur, əksinə, daha da kamilləşdirir, yaxşılaşdırır, əhliləşdirir; di gəl, mənfəət, nəf dalınca qaçmaq insanı korlayır, onun neqativ istəklərini hərəkətə gətirir, yırtıcı ehtiraslara təkan verir. Yazıçıya görə, xristian dini, o cümlədən katolik məzhəbi insanın azğın instinktlərini cilovlayıb sosial nizamı qorumaq üçün bütöv bir sistem formalaşdırıb.

Elə həmin müqəddimədə Balzak yazır ki, cəmiyyətin aramsız təkmilləşməsinə yox, ayrıca götürülmüş insanın kamilləşməsinə inanır; ardınca da onu sensualistlərin, materialistlərin - panteizm fəlsəfəsinin bu iki qolundan birinin nümayəndəsi sayanlarla razılaşmadığını deyib, personajlarından birinin timsalında dolayısıyla özü haqqında “xristian Buddası” ifadəsini işlədir (hərçənd Budda özü də nirvanaya panteistik çevrilmələrdən keçəndən sonra çatıb). “Bəşəri komediya”ya giriş sözündə müsbət qəhrəmanlarıyla bağlı dedikləri də göstərir ki, Balzak əzəli insan xislətinin dəyişmədiyinə inansa da, insanın öz xislətinə (yəni əslində ruhun bədənə) üstün gəlməsini mümkün sayır.

Xislət, təbiət min il, on min il əvvəl hansı fəsadlar verirdisə, bu gün də həmin fəsadları törətməkdədir. Obrazı istər qədim Misirə, Babilə tulla, istərsə də yaşadığın günlərə gətir - əgər onun təbiəti doğru analiz olunubsa, içindəki mübhəm duyğular düzgün incələnibsə, yasaq arzuları işığa çıxarılıbsa, demək, həmin obrazı yaradan sənətkar həm öz dövrü-zamanı, həm də bəşər övladı haqqında dəqiq, dürüst məlumat verib. Məsələn, mən sovet dövrünü görmüş klassiklərimiz arasında Hüseyn Caviddən daha çox antisovet qələm adamı tanımıram, halbuki Cavid əfəndi sovetlərin əleyhinə açıq mətnlə, birbaşa heç nə deməyib. Bununla belə onun bütün ideyaları, mövzuları, obrazları kommunist-bolşevik qaragüruhunun sənətə, sənətkara cızdığı çərçivədən tam kənardadır, sosializm realizmi kanonlarına bilmərrə sığmır. Şərt o deyil ki, açıq-aşkar şəkildə Lenini, Stalini pisləyəsən - bu tip mətnlər bir dövr üçün kara gəlsə də, daha çox ictimai-siyasi əhəmiyyət daşıyır, sənətkarlıq baxımındansa uzunömürlü olmur. İdeoloji müqavimət estetik dəyər qazanmayanda sənət hadisəsinə çevrilmir. İndi kənardan baxanda Cavidin “İblis” faciəsi sovet rəhbərlərinə qoşulmuş, arada-bərədə dillərdə dolaşan lətifələrdən, həcvlərdən, çapını on illərlə gözləmiş antisovet mətnlərdən mahiyyətcə daha antisovet görünür. İndi də belədir, o vaxt da beləydi.

Bu baxımdan Balzak da bir epoxanın fonunda yaratdığı surətlərin timsalında ümumən insan xisləti, insan cəmiyyəti haqqında sözünü deyib. Onun obrazları bu gün də sağdır, onun yaratdığı tiplər bu gün də aramızda gəzib dolaşırlar. Yalnız əllərindəki vasitələr təkmilləşib, meydanları genəlib, çağdaş tibbin inkişafı sayəsində ömürləri bir az da uzanıb, iştahaları, qazancları daha da artıb; vəhşi cəmiyyətdən qaçıb zahidanə ömür sürmək istəyənlərin imkanları isə, əksinə, xeyli azalıb, şəxsi azadlığın meydanı daralıb. Balzak əsərlərində yaratdığı personajların diliylə azadlığa susamış fərdin yalnız insan cəngəlliyindən uzaqda, dağların ətəyindəki idillik məkanlarda, çayların, bulaqların şırıltısı altında asudə həyat sürə biləcəyini deyirdi, ancaq bu gün belə bir bakirə torpaq tapmaq da müşkülə dönüb, az qala bütün idillik məkanlar ya vəhşi kapitalizmin kurort zonalarına, ya da terror dəstələrinin poliqonlarına, narkotik becərikçilərinin plantasiyalarına çevrilib.

Balzak zamanında mobil telefon yoxuydusa da, insan belə problemlərlə də qarşılaşmırdı. Xeyir təkmilləşdikcə onun icad elədiyi vasitələrdən yararlanan şər də özünü təkmilləşdirir, kölgə kimi əsliylə ayaqlaşmağa çalışır. Vasitələr dəyişir, mahiyyət dəyişmir.

***

Valideyn-övlad münasibəti hər zaman ədəbiyyatın başlıca mövzularından, tədqiqat obyektlərindən biri olub. Ta Homerin “Odisseya”sından, Sofoklun “Tiran Edip”indən üzübəri bu məsələyə çox müxtəlif bucaqlardan baxılıb. Balzakın da deyilən mövzuya yanaşmada öz variantları var. Bundan əvvəl haqqında danışdığımız “Qorio ata” romanında biz ata-övlad münasibətinin bir versiyasını gözdən keçirmişdik, qədirbilməz qızlarından ötrü sözün gerçək mənasında canından keçən zavallı qocanın parlaq obrazına yaxından baxmışdıq. “Yevgeniya Qrande” romanında isə Qorio atadan tamam fərqli despot ata obrazıyla rastlaşırıq, burada ata qızının yox, qızı atasının qurbanına çevrilir.

Bu romanın daha əvvəl çözməyə çalışdığımız “Qobsek” novellasıyla da qohumluq əlaqəsi var - Qrande ata da təxminən sələmçi Qobsek qədər xəsis, onca zalım, amansız var-dövlət hərisidir. Obrazlı desək, “Yevgeniya Qrande”ni “Qobsek”lə “Qorio ata”nın calağı da saya bilərik. Roman 1833-cü ildə işıq üzünə çıxarılıb. Üstündən on il keçəndən sonra Balzak yaradıcılığının pərəstişkarı gənc Dostoyevski bu əsəri rus dilinə çevirib. Yeri gəlmişkən, Dostoyevskinin yaradıcılığında Balzakın barmaq izlərini sezmək çətin deyil - məsələn, “Cinayət və cəza”nın Raskolnikovu “Qorio ata”nın Rastinyakı dayandığı yerdən yola çıxıb...

**davamı növbəti sayımızda**



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## ŞƏNBƏ ÜÇÜN NƏZM









Səhərdən axtarıb gəzirəm, amma
Heç yerdən ətrini ala bilmirəm,
Mən sənin sevgini hara qoymuşam?
Heç cürə yadıma sala bilmirəm.

Fikrim dağılıbdı axır zamanlar,
Sanki gözə gəlib yaddaşım, huşum.
Yəqin keçən həftə bilər yerini,
Ya da keçən aydan səni soruşum.

Unudub qoymuşam bəlkə sevgini
Otelin soyumuş pəncərəsində,
Fikir verməmişəm, yaddan çıxıbdı
Üzümə örtülən qapı səsində,
Gizli görüşlərin bəhanəsində.

Bəlkə yollar oldu məni çaşdıran?
Qatar oğurladı itən sevgimi,
Tələsik düşəndə kupedə qoydum
Oxunub qurtarmış bir kitab kimi?

Mən səni görəsən harda unutdum?
Yağışda itirdim, qarda unutdum?

Nəsə, həyatdı da. Mən bu yaşıma
Kimlərdən, nələrdən doyub gəlmişəm.
Təkcə səni deyil, mən özümü də
Sənli günlərimdə qoyub gəlmişəm.

**Üşütmə**

İntizar küləkləri
Üz gözümü yaladı.
Niyə bütün sevgilər
Əzabla qol qoladı?

Bu nə soyuqdur gəlib,
Nəfəsin də üşüyür.
Ürəyin qəfəsdədi
Qəfəsin də üşüyür.

Dönüb gün şüasına
Soyuğu azdırardım,
Üşüyən əllərini
Şeirlə qızdırardım.

Hava yaman tutulub,
Yenə yağar, deyiblər.
Əynivi qalın elə
Sabaha qar deyiblər.

***

Tökülür sənli saatlar o ömürdən,
bu ömürdən
Əyilib qaldıran olmur onu yerdən,
bunu yerdən,

Evimə dərd girir hər gün,
o başından, bu başından
Gözümə kölgə salırsan,
o maşından, bu maşından.

Səni sakitcə soruşdum
o yağışdan, bu yağışdan
Saçının ətrini aldım
o balışdan, bu balışdan

Süzülür sel kimi yaşlar
o gözündən, bu gözündən
Səni hicran öpür hər gün
o üzündən, bu üzündən

Bezmişəm sənsiz həyatın
o adından, bu adından
Zərrə-zərrə səni yığdım
o qadından, bu qadından

Tökülür sənli saatlar
o ömürdən, bu ömürdən
Əyilib qaldıran olmur
onu yerdən, bunu yerdən...

***

Apar məni uzaqlara bu axşam,
Unut məni sözün bitən yerində
Unut məni, ümidlərin işıq tək
Zəifləyib, ölüb, itən yerində...

Apar məni uzaqlara bu axşam,
Mənim sözüm-sənin səsin bir olsun...
Sözüm sənin səsində gizli qalsın,
Səsin üçün sözümdə bir yer olsun...

Apar məni uzaqlara bu axşam,
Görən olarsa, tez ərit gözündə,
İçin dolanda, ağlayanda hərdən
Gözün yaşıyla sellənim üzündə..

Apar məni uzaqlara bu axşam,
Göz işlədikcə hər tərəf söz olsun...
Xəyallarım burulmasın bir an da,
Həmişə nəm saçın kimi düz olsun...

Apar məni uzaqlara bu axşam,
Unut məni yağış yağan yerində,
Payız yelində titrəyən baxışlar
Şeir kimi mənə baxan yerində,

Unut məni şeir yatan yerində
Unut məni gunəş batan yerində...

***

Hərdən başını söykə
mənim çiynimə, ağla,
Göz yumma, geyindir
yagışı əynimə, ağla...

Sənsiz yaşanan isti-soyuq
ömrümə yas tut,
Sənlə yorulan dil,
çürüyən beynimə ağla...

Batmış ümidi sən açılan sübhə bağışla,
Dildən süzülən "bilmirəm"ə,
"neynim"ə ağla...

Bir qəhqəhə görcək
sıxılan qaşıma gül, gül,
Göz yaşı görərkən açılan eynimə ağla...

Buz bağlamasın isti baxışlar yenə,
Fəhmi,
Gördün soyuyur, qoy başını çiynimə,
ağla...

***

Əriyən qar kimi yollarda
axarsansa, gələrsən,
Bizə sarı bir ümid ilə
baxarsansa, gələrsən.

Mənim üçün nə darıxmaq?
Məni mən görməyirəm heç,
Öz əlindən özün hərdən
karıxarsansa, gələrsən.

Ehtiyac yoxdu mənimtək
yağışa yanmasan odda,
Özün öz qəlbini atəşdə
yaxarsansa, gələrsən.

Kimisə zorla tutub saxlamadım,
sən də özün bil,
Sıxılarsansa, gedərsən...
Darıxarsansa, gələrsən...

Ağıl insanı soyuq
çərçivədə eylədi məhbus,
Hərdən o çərçivədən
sən də çıxarsansa, gələrsən...

Fəhminin sözlərinin qiymətini
çox inci kimi sən,
Hamıdan gizlədib,
ovcunda sıxarsansa, gələrsən...

***İlqar Fəhmi***

# 40-a yaxın ölkədən qonaqların iştirakı ilə...

## Müasir din təhsilinə həsr olunmuş simpozium keçirildi

Dünən "Müasir din təhsili modelləri: mənəvi dəyərlər və qlobal çağırışlar kontekstində" beynəlxalq simpoziuma yekun vurulub. Oktyabrın 22-də başlayan beynəlxalq tədbirdə dövlət rəsmiləri, dini konfessiyaların, yerli ali təhsil və tədqiqat müəssisələrinin nümayəndələri ilə yanaşı, ümumilikdə, 40-a yaxın xarici qonaq iştirak edib.

Simpoziumda dini təhsilin tolerantlıq və multikulturalizm, əxlaqi dəyərlər, ictimai inkişaf kimi anlayışlarla qarşılıqlı təsiri, Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsində ölkə başçısının siyasətinin uğurlu nəticələrinə həsr olunmuş məruzələr dinlənilib.

### Cəmiyyət daxilində harmoniya...

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov çıxış edərək Prezident İlham Əliyevin tolerantlıq və multikulturalizm siyasətinin dini, mədəni müxtəlifliyi qorumaqla, ölkəmizi dünyaya beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi təqdim etməyə imkan yaratdığına diqqət çəkib.

O qeyd edib ki, Azərbaycanın dini təhsil modeli də məhz bu prinsiplərə əsaslanır. Klassik İslam ənənələri, müasir pedaqoji yanaşmalar üzərində qurulmuş bu modeli təkmilləşdirmək qarşımızda duran əsas hədəflərdən biridir: "Bu nöqteyi-nəzərdən







simpoziumda aparılacaq elmi diskussiyalar təcrübə mübadiləsi baxımından həm Azərbaycan alimləri, həm də digər iştirakçılar üçün faydalı olacaq".

Komitə sədri əlavə edib ki, mənəvi dəyərlərin qorunub saxlanılmasını, dini radikalizm və ekstremizm ideyalarından cəmiyyətin qorunmasını, multikultural və tolerantlıq ənənələrinin təşviqini, gənclərin yeni çağırışlar və reallıqlara uyğun yetişdirilməsini təmin edən model tapmaq lazımdır. Çünki din təhsili dini biliklərin və təsəvvürlərin zənginləşdirilməsinə xidmət etməklə yanaşı, cəmiyyət daxilində sabitlik və harmoniya yaradan, qarşılıqlı etimadı gücləndirən, mədəni və tarixi kimliyi qoruyan mühüm alətdir.

### Din və dövlət münasibətləri model halına gəlib

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, ölkəmizdə din və dövlət münasibətləri harmoniyanın, qarşılıqlı hörmətin və tolerantlığın üzərində qurulub: "Bu gün artıq qürurla deyə bilərik ki, Azərbaycanda din və dövlət münasibətləri model halına gəlib. Bu model həm bölgə, həm də dünya üçün müsbət nümunə sayılır".

R.Həsənov ölkəmizdə dinlər və məzhəblər arasında heç bir qarşıdurma və ya ayrı-seçkiliyin olmadığına diqqət çəkib: "Əksinə, Azərbaycanda müxtəlif dinlərin və məzhəblərin nümayəndələri bərabərhüquqlu, qarşılıqlı hörmətə əsaslanan münasibətlərlə fəaliyyət göstərirlər. Bu, yalnız dinlərarası dialoqun nümunəsi deyil, həmçinin Azərbaycanda formalaşmış din və dövlət münasibətlərinin sağlam mahiyyətinin göstəricisidir. Multikulturalizmə və dinlərarası harmoniya siyasətinə Azərbaycanda verilən dəyər dövlət səviyyəsində qəbul olunmuş ideoloji xətdir. Bu, təkcə siyasi və sosial seçim deyil, xalqımızın əsrlərlə formalaşmış mədəni və mənəvi irsinin təbii davamıdır. Biz bu modelin yaşaması və daha da möhkəmlənməsi üçün həm təhsil sistemində, həm də ictimai həyatın bütün sahələrində mənəvi dəyərlərin, qarşılıqlı anlayışın və dinlərarası əməkdaşlığın gücləndirilməsinə böyük önəm veririk. Bu mənada, simpoziumun çox dəyərli platforma olduğunu düşünürəm və inanıram ki, burada aparılacaq müzakirələr din təhsili və din-dövlət münasibətləri sahəsində yeni ideyaların yaranmasına mühüm töhfə verəcək".

### Din təhsili daim axtarışda olmalıdır

Milli Məclis sədrinin müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov bildirib ki, müasir din təhsili modellərinin müzakirə olunduğu beynəlxalq simpoziumun keçirilməsində məqsəd yalnız elmi bilik mübadiləsi aparmaq deyil: "Məqsədimiz mənəvi dəyərlərlə çağdaş dünyanın tələblərini uzlaşdırmaq, din təhsilinin həm mahiyyətinə, həm də müasir dövrün reallıqlarına cavab verən modellərini formalaşdırmaqdır".

O, qeyd edib ki, peşəkar səviyyədə təşkil edilən din təhsili yalnız din xadimləri üçün deyil, bütöv cəmiyyətin dini savadlılığı üçün də mühüm rol oynayır: "Dinin ən etibarlı dayaqlarından olan din təhsili daim axtarışda olmalı, öz məqsədlərinə çatmaq üçün yeni metodlar tapmalıdır. Çünki mənəvi dəyərlərin qorunması və cəmiyyətdə nizamın saxlanması məhz bu təhsilin səviyyəsindən asılıdır. Bu gün dünya texnoloji inqilab dövrünü yaşayır. Əvvəllər bir çox yeniliklər "şeytan əməli" kimi qəbul edilirdi. Lakin ağılla və məqsədyönlü şəkildə istifadə ediləndə həmin texnologiyalar insanlığa xidmət edən "mələk qüvvəsinə" çevrilib".

***Yeganə***


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**


# Süni superintellekt qadağan ediləcək?

Xarici media yazır ki, 850-dən çox alim, sahibkar və ictimai xadim süni superintellektin (ASI) inkişafının qadağan edilməsinə çağıran açıq məktub imzalayıb. Onlar xəbərdarlıq edirlər ki, avtonom öyrənmə, kodların yenidən yazılması və insan müdaxiləsi olmadan strateji qərarlar qəbul etmə qabiliyyətinə malik sistemlər sivilizasiyanın əməliyyat sistemini poza bilər.

AZƏRTAC xəbər verir ki, məktub süni intellekt etikası ilə bağlı təşəbbüsləri ilə tanınan Gələcək Həyat İnstitutu tərəfindən dərc edilib. İmza atanların arasında Yoşua Bengio, Ceoffri Hinton, Stiv Voznyak, Syuzan Rays və Yuval Nuh Harari var. Məktubda qeyd edilib ki, bəşəriyyət nəticələrini proqnozlaşdıra bilməyəcəyi bir texnologiya yaratmaq riski ilə üzləşir. Harari yazıb: "Əgər biz bu gün insanlara fayda verən nəzarətli süni intellektə diqqət yetirsək, onun potensialını təhlükəsiz şəkildə ortaya çıxara bilərik".

Lakin, əsas süni intellekt şirkətlərinin - "OpenAI", "Anthropic", "Google" və "Microsoft"un rəhbərləri məktubu dəstəkləməkdən çəkiniblər. Bu, süni intellektin inkişafına akademik və korporativ yanaşmalar arasında artan boşluğu vurğulayır.

Alimlər bu cür sistemlərin təhlükəsiz və nəzarət altında yaradılmasının mümkünlüyü barədə elmi konsensus yaranana qədər hər





hansı superintellektin inkişafına moratorium qoyulmasını tələb edirlər. Onlar qeyd edirlər ki, süni intellekt məqsədlərini bəşəri dəyərlər ilə uyğunlaşdırmaq üçün mövcud metodlar insan zəkasını üstələyən sistemlər səviyyəsində istifadəyə hazır deyil. "IBM Research" şirkətinə görə, hətta süni intellektin yoxlanılması və idarə olunmasına mövcud yanaşmalar daha inkişaf etmiş modellər üçün "fəlakətli dərəcədə qeyri-kafi" ola bilər.

Analitiklər hesab edirlər ki, süni superintellekt təhlükəsi hələlik birbaşa biznes problemi kimi qəbul edilməməlidir. "Bu, 2025-2028-ci illər üçün əməliyyat riski deyil, əksinə fəlsəfi bir sualdır. Lakin müzakirə artıq prioritetləri dəyişir və getdikcə daha çox şirkət ən ağıllı deyil, xüsusən də maliyyə, tibb və dövlət xidmətlərində ən proqnozlaşdırıla bilən və şəffaf olan süni intellektə güvənir", -deyə "Greyhound Research" şirkətinin baş direktoru Sançit Vir Qogia qeyd edir.

Mütəxəssislər xəbərdarlıq edirlər ki, birtərəfli qadağa öz süni intellekt modellərinə fəal şəkildə investisiya qoyan Çinin mövqeyini gücləndirə bilər. "DeepSeek" və "Alibaba" kimi şirkətlər artıq rəqabətli açıq mənbəli həllər buraxır və ABŞ ilə texnoloji fərqi azaldır. Analitiklər qeyd edirlər: "Qərb bu sahədə yavaşlasa, Çin sürətlənəcək. Bəlkə də bu rəqabətin qalibi ilk dəfə olaraq ASI-ni sürətlə yaradan deyil, onu cilovlamağı öyrənən olacaq".


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4994**
**Sifariş: 2178**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova